United Nations
Educational, Scientific and
Cultural Organization

With the support of the UNESCO Office in Moscow
for Armenia, Azerbaijan, Belarus,
the Republic of Moldova and the Russian Federation

The National Commission
of the Republic of Azerbaijan for UNESCO

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Xalçası və
Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi



# AZƏRBAYCAN XALÇAÇILIQ

## ƏNƏNƏLƏRİ VƏ BƏDİİ SƏNƏT SAHƏLƏRİNİN SAXLANILMASI VƏ TƏBLİĞİ MƏQSƏDİLƏ MUZEY TƏHSİLİ PROQRAMLARININ İNKİŞAFI ÜZRƏ METODİKİ GÖSTƏRİŞ

United Nations
Educational, Scientific and
Cultural Organization

With the support of the UNESCO Office in Moscow
for Armenia, Azerbaijan, Belarus,
the Republic of Moldova and the Russian Federation

The National Commission
of the Republic of Azerbaijan for UNESCO

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Xalçası və
Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi

# AZƏRBAYCAN XALÇAÇILIQ

## ƏNƏNƏLƏRİ VƏ BƏDİİ SƏNƏT SAHƏLƏRİNİN SAXLANILMASI VƏ TƏBLİĞİ MƏQSƏDİLƏ MUZEY TƏHSİLİ PROQRAMLARININ İNKİŞAFI ÜZRƏ METODİKİ GÖSTƏRİŞ

Bakı – 2011-cu il

**AZƏRBAYCAN XALÇAÇILIQ ƏNƏNƏLƏRİ VƏ BƏDİİ SƏNƏT SAHƏLƏRİNİN SAXLANILMASI VƏ TƏBLİĞİ MƏQSƏDİLƏ MUZEY TƏHSİLİ PROQRAMLARININ İNKİŞAFI ÜZRƏ METODİKİ GÖSTƏRİŞ. - Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. – Bakı: 2011-cu il**

**Layihənin əlaqələndiricisi:** Röya Tağıyeva - Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq doktoru, professor

**Tərtibçi –müəlliflər:** Röya Tağıyeva
Gülşən Hüseynova
Yalçın Səlimov

**İşçi qrup:** Aygün Abasova
Fəxri Eyubov
Nərminə Tağıyeva
Ülkər Şirəliyeva

**Məsləhətçi:** Ramiz Məmmədzadə - pedaqoji elmlər doktoru, professor

**Dizayner:** Yuliya Rudova
Pərviz Bağırov

**Muzeyin elektron poçtu və internet səhifəsi:** mail@azcarpetmuseum.az
www.azcarpetmuseum.az

YUNESKO-nun Moska Bürosunun maliyyə dəstəyi ilə hazırlanıb

*Layihənin müəllifləri nəşrdə təqdim olunan faktların seçiminə və çapına, həmçinin YUNESKO-nun rəyi ilə üst-üstə düşməyən və ya bu təşkilatı nüfuzdan salan nöqteyi-nəzərə görə məsuliyyət daşıyırlar*

© UNESCO, 2011
© Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, 2011

# Mündəricat

**Ön söz**......5

**Muzey təhsili - muzeylərin yeni funksiyası**......8

- Muzey təhsili tarixindən
- Müasir muzey və təhsil

**Muzey təhsili Azərbaycanda xalçaçılıq ənənələrinin saxlanılması vasitəsi kimi**......11

- Muzey təhsilinin prinsipləri və məsələləri
- Təhsil üçün əlverişli mühitin yaradılması
- Azərbaycan xalçası muzeyinin təhsil siyasəti

**Muzey təhsili auditoriyası**......16

- Məktəbəqədər uşaqlar və kiçik sinif şagirdləri
- Orta və yuxarı sinif şagirdləri
- Uşaq təhsilinin səmərəliliyinin artırılması
- Yaşlıların təhsili

**Azərbaycan Xalçası Dövlət Muzeyinin Azərbaycan xalçaçılıq ənənələri üzrə muzey təhsili proqramları**......24

- Məktəbəqədər yaşlı uşaqlar və kiçik sinif şagirdləri üçün proqramlar
- Orta və yuxarı sinif şagirdləri üçün
- Ailə üçün proqramlar
- Gənclər üçün təhsil proqramları
- Yaşlılar üçün təhsil proqramları
- Muzey işçiləri üçün Metodiki Göstərişlərdən istifadə olunması ilə baglı tətbiq olunan treninqlər

**İstifadə olunan ədəbiyyat**......28

**Əlavələr:**......29

.

1. Uşaq təhsil proqramı “Xalça toxumağı öyrənirik” orta və yuxarı sinif şagirdləri üçün
2. Təhsil proqramı “Dəyişən zamanda dəyişməyən dəyərlər” peşəkar toxucular üçün
3. Təhsil proqramı “Sehrli xalça aləmi” həvəskarlar üçün
4. “Axtaran, tapar” Azərbaycan xalçalarının əsas naxışları əsasında ailə proqramı
5. “Xalça toxumağı öyrənirik” proqramı üçün çeşnilər
6. “Naxışlar aləminə səyahət” proqramı üçün materiallar

# Ön söz

Azərbaycan xalçası – Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsidir. Xalça hələ qədimdən özündə utilitar və estetik keyfiyyətləri birləşdirir.

Xalça hər zaman həyat axarının əsas elementi kimi qalaraq, sosial, iqtisadi, siyasi və ümumilikdə insanların və cəmiyyətin həyatındakı mədəni dəyişiklikləri əks etdirir. O, folklorda, klassik Azərbaycan ədəbiyyatında və xalq ifaçılları - aşıqların nəğmələrində iştirak edir. Bunda başqa, xalça tək məişət əşyası olaraq qalmamış, həmçinin xalqın əsas bədii ifadə mühitinə çevrilmişdir. Hətta həyat tərzinin dəyişilməsinə və başqa məişət mühitinin yaranmasına baxmayaraq, xalça öz dəyərini itirməmişdir.

Ənənəvi xalça həm proqmatik, həm də rəmzi baxımdan Azərbaycan məişətinin əsas cəhətlərini əks etdirir. İstər maldar alaçığında, əyan sarayında, kəndli evində, istərsə də müasir mənzillərdə xalça həmişə rahatlıq, uğur, harmoniya mənbəyi olmuşdur. Xalça bu gün də geniş sahəni əhatə edir, üslubu formalaşdıraraq göz oxşayır.

Azərbaycanlıların həyatını müxtəlif növ xalça və xalça məmulatları olmadan təsəvvür etmək mümkün deyil. Hələ qədim zamanlardan Azərbaycanın həm maldar, həm də əkinçi əhalisi gündəlik məişətdə xalçadan istifadə etmişdir. Azərbaycanlı harada xalça döşəyirdisə ora onun evi sayılırdı. Xalça ilə yaşadığı evi bəzəyir, divarlardan asır və döşəməyə sərir. Xalçadan özlərinə geyim tikir, atlarını soyuqdan qoruyur, çanta kimi istifadə edir, xalça üzərində dünyaya gəlir və xalça üzərində son mənzilə yola salınır. Eyni zamanda, nağıla bənzər, rəngarəng xalça onun gözünün nurudur. Azərbaycanda belə bir deyim var: "Xalçam harda, yurdum orda".

Gündəlik həyatla yanaşı, xalça və xalça məmulatlarından təntənəli bayramlarda və dini mərasimlərdə, o cümlədən toy mərasimlərində, bahar bayramı - Novruzda, ibadət zamanı geniş istifadə olunurdu.

Xalça Azərbaycan məişətində o qədər geniş əhəmiyyətə malikdir ki, bacarıqlı xalçaçılar cəmiyyət arasında böyük hörmət qazanmışlar. Toxucunun əməyində boyaqçının bacarığı, rəssamın təbi birləşirdi. Xalçanın hazırlanma prosesi bütünlükdə təbriklərlə və bayram şirniyyatları ilə müşayiət olunurdu. Xalçanın hanadan kəsilmə prosesi xüsusi qeyd olunurdu. Həmin gün uğurlu, xoşbəxt gün sayılır və niyyət tutulurdu.

Xalça yüzilliklər boyu Azərbaycan xalqının mədəni nümunəsi kimi təkcə insanların canlı tarixi deyil, həm də qədim köklər, mədəni dəyərlər haqqında məlumatdır. İncəsənətin bütün növlərinə təsir göstərən xalça həm Şərq, həm də Qərbdə evlərə istilik və rahatlıq gətirməklə yanaşı, Avropa incəsənətində xüsusi yer tutmuşdur. Bu – mədəni dialoqun və mədəni mübadilənin canlı nümunəsidir.

Lakin bu gün milli xalçaçılıq sənətinin və xalça ilə bağlı ənənələrin, həmçinin naxış və texnologiyaların müxtəlifliyinin saxlanılması, mühafizəsi və gələcək nəslə ötürülməsinə böyük tələbat mövcuddur. Ənənələrin unudulmaqda olduğu bəzi bölgələrdə xalçaçılığı mühafizə etmək və istehsalını stimullaşdırmaq vacibdir. Bu isə, öz növbəsində, gənc nəsildə mədəni irsə diqqət və həvəsi tərbiyə etmək, xalçaçılıq icmalarının yaradıcı potensialını yüksəltmək və Azərbaycanda xalçaçılığın gələcək inkişafını dəstəkləmək məqsədi daşıyır.

Xalça təkcə maddi obyekt deyil, o həmçinin dünyanın digər qeyri-maddi irs nümunələri kimi məhvə məruz qala bilər. Qeyri-maddi irsin saxlanılması sahəsində YUNESKO fəal addımlar atır. 2003 və 2005-ci illərdə qəbul olunmuş konvensiyalar bunun canlı sübutudur.

YUNESKO-nun Qeyri-maddi İrsin Mühafizəsi üzrə Konvensiyası (2003-cü il)

YUNESKO-nun Qeyri-maddi İrsin Mühafizəsi üzrə Konvensiyası (2003-cü il) maddi irsin mühafizəzi üzrə YUNESKO-nun normativ sənədini zənginləşdirməklə şifahi yaradıcılıq ənənələrinin və folklorun (qeyri-maddi irsin daşıyıcıları kimi dil də daxil olmaqla), tamaşalar, ayinlər və bayramların, təbiət və ətraf mühitlə bağlı olan vərdiş və adətlərin, həmçinin ənənəvi sənətkarlığın saxlanılmasını nəzərdə tutur.

Konvensiyanın iştirakçısı olan dövlətlər öz ərazilərində qeyri-maddi mədəni irsin saxlanılması üçün lazımi tədbirlər görməyi, bu irsi yaradan, inkişaf etdirən və nəsildən-nəslə yaşadan icmalar, əhali

qrupları ilə birlikdə qeyri-maddi irsin bir və ya bir neçə qeydiyyat siyahılarının tərtib edilməsini öhdələrinə götürür.

Konvensiya həmçinin iki siyahını: Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin səlahiyyətli siyahısını və təcili mühafizə tədbirlərinə ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısını tərtib etməyi nəzərdə tutur. O həm də Konvensiyanın iştirakçı dövlətləri və digər mənbələrdən maliyyələşdirilən Qeyri-Maddi Mədəni İrsin Mühafizəsi Fondunu təsis edir.

Konvensiya çərçivəsində Azərbaycan 2009 və 2010-cu illərdə artıq iki təklifi: "Azərbaycan aşıq musiqisi" və "Azərbaycan xalçası"nı reprezentativ siyahısına daxil edilməsini bildirmişdir. "Azərbaycan muğamı" bir qədər əvvəl, 2003-cü ildə Bəşəriyyətin Şifahi və Qeyri-Maddi Mədəni İrsin İnciləri Siyahısına, Azərbaycan xalçası isə 2010-cu ildə buraya daxil edildi.

Mədəni özünüifadənin forma müxtəlifliyinin mühafizəsi və dəstəklənməsi üzrə
YUNESKO-nun Konvensiyası (2005-ci il)

Sənəd mədəniyyət, inkişaf və dialoq məsələləri arasında mövcud qarşılıqlı əlaqəni yenidən qeyd etmək, o cümlədən beynəlxalq mədəni əməkdaşlıq üçün yeniləşmiş platformanı yaratmaq məqsədi daşıyır. Bu məqsədlə Konvensiya bütün dövlətlərin həm "mədəni özünüifadə formalarının müxtəlifliyini mühafizə və inkişaf etdirən", həm də "onların qarşılıqlı sərfəli əsasda çiçəklənməsi və azad qarşılıqlı fəaliyyəti üçün mədəni şəraitin yaradılması"nı nəzərdə tutan mədəni siyasətinin işlənməsi və keçirilməsinin suveren hüququnu təsdiq edir.

Konvensiya həmçinin inkişaf prosesinin əhəmiyyətli amili kimi mədəniyyətin rolunu işıqlandırır, vətəndaş cəmiyyətini Konvensiyanın məqsədlərinə çatmaq istiqamətində səfərbər edir, eyni zamanda, Mədəni Müxtəlifliyin İnkişafı Fondunun yaradılması məsələsini hüquqi əsaslandırma vasitəsilə öz mexanizminin əsası kimi beynəlxalq həmrəylik prinsipini möhkəmləndirir. Eyni zamanda, Konvensiyanın müddəaları "mədəniyyətdə yaradıcı prosesin bütün iştirakçılarının dəstəklənməsi üçün intellektual mülkiyyət hüquqları institutunun əhəmiyyətini" xüsusi qeyd edir və "azad fikir, özünüifadə və məlumat, həmçinin kütləvi informasiya vasitələrinin müxtəlifliyi istənilən cəmiyyətdə mədəni özünüifadə formalarının sərbəst inkişaf və çiçəklənməsinə imkan verir" müddəasını yenidən təsdiq edir.

Azərbaycan hər iki konvensiyaya qoşulmuş, birincisini 2007-ci ildə, ikincisini isə 2010-cu ildə paraflamışdır, konvensiyalar mədəni irsin mühafizəsi üzrə YUNESKO-nun fəaliyyəti üçün münbit mühitin yaradılmasını təmin edir.

YUNESKO-nun belə layihələrindən biri "Xalçaçılıq ənənələri daxil olmaqla, Azərbaycanda bədii sənət sahələrinin inkişafı və saxlanılması üzrə təhsil ehtiyatlarının səfərbər edilməsi üçün potensialın inkişafı layihəsi" Azərbaycan Xalçası Dövlət Muzeyi tərəfindən həyata keçirilir. Layihənin tərəfdaşları:

- YUNESKO-nun Moskva Bürosu
- YUNESKO məsələləri üzrə Azərbaycan Milli Komissiyası
- Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyidir.

Layihənin məqsədi Azərbaycan muzeyləri arasında muzey təhsili siyasətini yaymaq vaitəsilə Azərbaycanın milli mədəni irsinin mühafizəsi və muzeylərin ənənəvi incəsənət, sənətkarlıq və yaradıcı potensial çərçivəsində təhsil siyasətinin möhkəmləndirilməsi və mədəni ifadələrin dəstəklənməsi vasitəsilə biliklərə açıq olan yer kimi muzeylərin rolunun artırılmasından ibarətdir:

- Uşaqlar və yaşlılar üçün muzey təhsili vasitəsilə ənənəvi xalçaçılığın dirçəldilməsi;
- Gəncləri xalçaçılığa cəlb etmək məqsədilə onların maraqlarını dəstəkləməklə xalçanın milli ənənəvi xüsusiyyətləri barədə məlumatlandırılması;
- Uşaqların yaradıcı bacarıqlarının inkişaf etdirilməsi;
- Milli xalçaçılığın tarixinin öyrədilməsi;
- Xalçaçılıq bölgələrində xalçaçıların peşəkar bacarıqlarının artırılması.

Layihə ənənəvi tətbiqi sənətlər üzrə təhsil mərkəzləri kimi muzeylərin rolunun möhkəmləndirilməsinə və mədəni ifadələrin çoxluğuna kömək edəcək.

Layihə həmçinin YUNESKO-nun hamı üçün təhsil, mədəni müxtəlifliyin saxlanılması, ənənəvi sənətkarlığın dəstəklənməsi vasitəsilə davamlı inkişaf kimi prioritetlərə toxunur.

Layihə 2010-2011-ci illər ərzində 10 ay müddətində həyata keçiriləcək və aşağıdakı əsas məqamları əhatə edir:

- Metodiki Göstərişin tərtibi;
- Göstərişin Azərbaycan muzeyləri və təhsil ocaqları arasında yayılması;
- Muzey işçiləri arasında bir sıra təlimlərin keçirilməsi.

Xalçanı inkişaf etdirmək üçün ilkin mənbələrdən məlumatın tamaşaçılar tərəfindən qəbulu prinsiplərinə əsaslanan muzey təhsilindən istifadə çox vacibdir. Təhsil prosesdir, əgər biz təhsil sistemini nəzərdə tutsaq, onda Azərbaycan Xalçası Dövlət Muzeyinin təhsil proqramı məhz bu prinsipə əsaslanır.

Bəşəriyyətin təhsilə, xüsusən də muzey təhsilinə ciddi diqqət yetirdiyi bir vaxtda Xalça Muzeyi ölkədə xalçaçılıq sənətini inkişaf etdirmək məqsədilə əhalinin müxtəlif yaş qruplarını əhatə edən təhsil proqramını işləyib hazırlamışdır.

Muzey xalça kolleksiyalarının yaradılması ilə yanaşı, xalça və xalçaçılıqla bağlı qeyri-maddi mədəni irsin - əfsanələrin, rəvayətlərin, adətlərin, xalçanın semantikası və estetikası haqqında təsəvvürlərin, həmçinin xalça istehsalçılarının peşə sirlərinin saxlanılmasına da böyük diqqət yetirir. Bu gün Muzey mədəni-tarixi dialoq üçün məkan, tamaşaçının mədəni dəyərlərlə təmasının yeni formalarını araşdıran yerdir. Muzey təhsilinin inkişafı heç də az əhəmiyyətli rol oynamır. Bu məqamda hislərin tərbiyəsinə, təxəyyülün inkişafına, yaradıcı fəallığa nail olmaq vacibdir və muzey eksponatları bu prosesə kömək etməlidir. Xalçanın milli ənənələrin və həyat tərzinin ayrılmaz hissəsi kimi kompleks şəkildə anlamı Muzeyin Azərbaycan vətəndaşlarına və qonaqlara ünvanlanmış təhsil işinin əsasıdır.

Muzeydə təhsil proqramının həyata keçirilməsi yeniyetmələrin diqqətini ənənəvi xalçaçılığa cəlb edər, onların ixtisas seçiminə təsir göstərər və unudulmaqda olan xalça növlərinin istehsalını dəstəkləyər.

## Bu vəsait nə üçün lazımdır?

Azərbaycan Xalçası Dövlət Muzeyinin təhsil fəaliyyətinin əsası Azərbaycanın qeyri-maddi mədəni irsi kimi xalça, onun texnologiyası, semantikası və estetikası haqqında ənənəvi təsəvvürlərin, adətlərin, əfsanələrin saxlanılmasından ibarətdir. Muzey həmçinin müasir ustaların işlərində davam etdirilən ənənəvi toxuculuğu dəstəkləməyə çalışır.

Təhsil mərkəzi kimi Azərbaycan Xalçası Dövlət Muzeyi ənənəvi xalçaçılığın mühafizəsi, dirçəldilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə böyük təhsil fəaliyyətini davam etdirir. Bu məqsədlə Muzeyin təhsil proqramları müxtəlif yaş qruplarını, o cümlədən məktəbəqədər, məktəb yaşlı uşaqları, yaşlıları və peşəkar toxucuları əhatə edir. Məhz buna görə Metodiki Göstəriş hazırlanmışdır.

Metodiki Göstərişin hazırlanmasında məqsəd milli mədəni irsin, ənənəvi incəsənətin, sənətkarlığın təbliğindən ibarət olan muzey təhsili siyasətini Azərbaycan muzeyləri arasında yaymaq və bununla da muzeylərin rolunu artırmaqdır.

Kitab Azərbaycanın ənənəvi xalçaçılıq zonalarında müxtəlif yaş qrupları arasında xalça və xalçaçılığın yayılmasını dəstəkləyəcək, yeniyetmələr arasında bu sənətə marağı artıracaq və nəticədə xalçanın milli xüsusiyyətlərinin saxlanılmasını və ənənəvi xalçaçılığın gələcəyini təmin edəcək.

Xalça Muzeyinin təhsil proqramları sahəsində təcrübəsinə əsaslanan Muzey Təhsili üzrə Metodiki Göstəriş Azərbaycanın ənənəvi toxuculuq zonalarında xalçaçılığın inkişafına yardım edəcək.

Metodiki Göstərişin məqsədi muzeylərdə və təhsil müəssisələrində müxtəlif yaş qrupları arasında xalçaçılığa marağı artırmaq üçün təhsil siyasətinin həyata keçirilməsində muzey işçilərinə və məktəb müəllimlərinə kömək göstərməkdir.

Metodiki göstərişin təhsil siyasətinə aşağıdakılar daxildir:

- Muzey təhsilinin ümumi üsulları və muzeylərdə təhsil siyasətinin həyata keçirilməsi;
- Uşaqların oyun və müxtəlif təhsil proqramları vasitəsilə təlim üsulları;
- Uşaqlarda və yaşlılarda fakultativ toxuculuq dərnəklərində xalçaçılıqla məşğul olmağa həvəsin oyadılması.

Bundan başqa, Metodiki Göstəriş Xalça Muzeyinin təhsil proqramlarını təsvir edir. Nəhayət, burada muzey işçilərinə və məktəb müəllimlərinə Metodiki Göstərişdən istifadə haqqında məsləhətlər dərc edilib.

## 1. Muzey təhsili - muzeylərin yeni funksiyası

### Muzey təhsili tarixindən

Muzey təhsilinin əsas baniləri olan alman pedaqoq və muzey xadimləri H.Kerşenşteynin, H.Froydentalın və A.Reyxveynin adları ilə bağlıdır. 1913-cü ildə Manngeym şəhərində "Muzey təhsil və tərbiyə müəssisəsi kimi" konfransında Hamburq Rəsm Qalereyasının direktoru A.Lixtvark məruzəsində muzeyə yeni baxışı ifadə etmişdir: "Orta əsrlərdə universitetlərin yaranmasına, absolütizm dövründə akademiyaların meydana gəlməsinə, XIX əsrdə yeni ali təlim-tərbiyə müəssisəsi – muzey də əlavə olundu. Hər üç müəssisə dövrünün izini daşıyır... Hamı üçün açıq olan, insanlara xidmət zamanı müxtəliflikləri və bölgüləri qəbul etməyən muzeylər demokratik şüurun təcəssümüdür".

G.Kerşenşteyner muzey ekspozisiyasının təhsili konsepsiyasını işləyib hazırlamışdır. Onun ideyaları Münhen şəhərindəki Alman Təbiətşünaslıq və Texnika İnciləri Muzeyinin fəaliyyətində öz əksini tapmışdır. Muzeyin ekspozisiyası tək mütəxəssis üçün deyil, istənilən tamaşaçı üçün qəbul edilən olmalıdır. O təhsilin əyaniliyinin həyata keçirilməsinə yönəlmiş və tamaşaçının materialı dərk edən zaman fəallıq nümayiş etdirməsinə istiqamətlənmişdir. Beləliklə, alman muzeyşünaslığı səmərəli təhsil prosesi üçün təkcə əlaqələndiricini deyil, həm də pedaqoji prinsip əsasında qurulmuş ekspozisiyanın olmasının vacibliyini qeyd edir.

O, uşaqların muzeyə gəlməsinə hazırlıq, muzeydə toplanmış bilik və təəssüratların dərs zamanı möhkəmləndirilməsi də daxil olmaqla, məktəblilərlə iş üzrə xüsusi metodika işləyib hazırlamışdır. Metodikanın mərkəzində əsas yer muzey təhsili prosesinin iştirakçısı kimi məktəb müəlliminə ayrılmışdır.

1970-ci illərin əvvəllərində "Məktəblilərin estetik tərbiyəsində bədii muzeylərin rolu" seminarının iştirakçıları təhsil və psixologiya prinsipləri əsasında muzey iclarlarının interpretasiyasına elmi yanaşmanı təmin edən muzey təhsilinin işlənib hazırlanmasının vacibliyi haqqında eşitdilər.

Həmin dövrdə Muzeyin mədəni-maarif sahəsində fəaliyyəti elmi fənn kimi muzey təhsilinin formalaşmasına şərait yaratdı. Bu vəziyyəti aşağıdakı kimi xarakterizə etmək olar:

1. Muzeyin yeni təhsil konsepsiyası, yəni onun ictimai mövqeyi və tamaşaçılarla işin əsası haqqında təsəvvürlər sistemi formalaşır. Onun mədəni-maarif fəaliyyətinin əsasını tamaşaçılarda mədəni-tarixi irsə dəyərli münasibət yaradan aksioloji konsepsiya təşkil edir.

2. Təhsil və tərbiyə edilən obyekt deyil, muzey mühitində həyata keçirilən kommunikativ prosesin, dialoqun bərabərhüquqlu iştirakçısı kimi auditoriyaya münasibət dəyişir. Eyni zamanda, muzey auditoriyasına mücərrəd tamaşaçıların cəmi kimi baxılması dayandırılır, yaş, təhsil və digər əlamətlərə görə kifayət qədər ciddi bölgüyə üstünlük verilir.

3. İlk dəfə olaraq muzey kommunikasiyasının nəticəviliyi problemi, muzeyin müxtəlif qrup tamaşaçılara təsiri, bu və ya digər formaların səmərəliliyi ciddi nəzərdən keçirilməyə başlayır. Uşaqlarla iş muzeydə psixoloji tədqiqatların aparılmasını stimullaşdırır.

4. Muzey mütəxəssisinin muzey reallığını pedaqoji nöqteyi-nəzərdən öyrənmək imkanı olan xüsusi tipinin yaranmasına tələbatla yadda qaldı.

5. Muzeyşünaslığın digər elmlərlə inteqrasiyasına tələbat yaranır.

Y.B.Medvedeva, M.Y.Yuxneviç muzey təhsilinə belə tərif vermişlər: "Muzey təhsili – pedaqogika, psixologiya, muzeyşünaslıq, incəsənət (ümumi mədəniyyətin hissəsi kimi) və diyarşünaslığın kəsişməsində yaranan elmi bilik sahəsidir. O kommunikasiyanın muzey formalarından, muzey vasitələrindən istifadə etməklə məlumatın ötürülməsi və qavranılmasının pedaqoji nöqteyi-nəzərindən xarakterini tədqiq edir.

**Müasir muzey və təhsil**

Bu günün muzeyi elm-təhsil ocağından daha çox ictimai-mədəni mərkəzə çevrilir. Muzeylərin missiyası, təhsil siyasəti də əhəmiyyətli dərəcədə dəyişir.

Davamlı inkişafda təhsil dünyada yeni yaranan konsepsiya kimi aşağıdakılara əsaslanır:

- Təhsilin ümumiliyi və davamlılığı;
- Fənlərarası yanaşma;
- Müəllimlə tələbə arasında qarşılıqlı əlaqə, müzakirələr, təcrübə və yaradıcılığa əsaslanan təlim;
- Dövlət və cəmiyyət tərəfindən dəstək;
- Təlimlə tərbiyənin əlaqələndirilməsi;
- Biliyin müasir sahələrinin nailiyyətlərinin sosiumların ekoloji davamlı inkişafı modellərinin yaradılmasına inteqrasiyası.

İlk növbədə, bilik və bacarıqların əldə olunmasına yönəlmiş təhsil, o cümlədən muzey təhsili, insan və vətəndaşın tərbiyəsinin, onun dəyərlərə, mövqelərə baxışlarının formalaşmasına kömək edir. Beləliklə, təhsil bilavasitə uzunmüddətli məqsədlərə nail olmağa, cəmiyyətin inkişaf ssenarilərini qurmağa təsir göstərir.

Son illər əldə olunan uğurlar məlumatın geniş ictimaiyyətə çatdırılması, onun geniş kütlələr arasında könüllü surətdə dərkinə şərait yaradılmasını, nəticədə fərqli düşüncəni, tənqidi təhlili, keçmişi daha yaxşı anlamanı, təbiət aləminin və ətraf mühitin həlledici məsələlərinin kompleksliliyini öyrənməklə bu sahələrə yanaşmanı dəyişməyə kömək edir.

XXI əsrin bacarıqları:

1. Faktlar əsasında təlim (ilkin mənbələr belə təhsilin əsasını təşkil edir);
2. Komandada iş (fərdi və kollektiv);
3. İlkin mənbə ilə əlaqə zamanı əldə olunan məlumat yeni biliyin yaradıcılıq vasitəsilə qavranılmasına imkan verir.

Bütün bunlar keyfiyyətli təhsilə şərait yaradır.

Muzey təhsilinin məktəb təhsili ilə həmahəngliyi xüsusən əhəmiyyətlidir. Bu istiqamətdə muzeylə məktəb proqramlarını birləşdirən üç addım:

- I mərhələ: muzey proqramı məktəb proqramına daxil edilir, bəzi fənlərin (tarix, ədəbiyyat, riyaziyyat, biologiya, rəsm, texnologiya) tədrisinə kömək edir;
- II mərhələ: bütün bunlar muzeylərdə baş verir;
- III mərhələ: biliklər məktəbdə möhkəmlənir.

Muzey təhsili ilkin mənbələrə, faktlara əsaslandığından, yüksək keyfiyyətli təhsil almağa şərait yaradır. Muzey təhsili ömür boyu keyfiyyətli təhsilə şərait yaradır. Muzey təhsili yaşından, sənətindən asılı olmayaraq hamı üçün açıqdır. Muzey təhsili yeni biliklərin, peşə və sənətlərin əldə olunması üçün şərait yaradır.

Bu gün Azərbaycanda davamlı inkişaf strategiyası üzrə konsepsiyanı müzakirə edərkən keyfiyyətli təhsilin rolunu və onun tərkibində muzey təhsilinin yerini qeyd etmək vacibdir. Müasir dünyada muzey təhsili "XXI əsrin bacarıqları"nın öyrənilməsi ilə əlaqədar daha böyük əhəmiyyət kəsb edir. Məhz muzey ilkin mənbələrdən öyrənmək imkanı yaradır ki, bu da faktlara əsaslanan təlim deməkdir.

Muzeydə təhsil, geniş mənada, təkcə öyrənmək üçün nadir imkan deyil, həm də formal təhsilə alternativ kimi insanlara asudə vaxtdan

səmərəli istifadə edərək, yeni biliklər əxz etməyi təklif edir.

Bu potensialların gücləndirilməsi asan deyil. Təhsil sahəsində çalışan tədqiqatçılar formal və ya rəsmi təhsilə əsaslanan nəzəriyyələrin, tamaşaçının maraqlarını dəstəkləyən modellərin və pedaqoji strategiyaların identifikasiyası zamanı faydalı olmadıqlarını qısa müddətdə aşkar etmişlər.

Bu gün təhsilin ən böyük hissəsi rəsmi təşkilat olan məktəbdə cəmlənmişdir. Muzeylər kimi, qeyri-rəsmi müəssisələr isə yeni konsepsiyalar hazırlamaqla, münasibətləri və idraki bacarıqları yaxşılaşdırmaqla sosial, mədəni və elmi məlumatın ötürülməsi üçün potensialından istifadəni təklif edirlər. Belə qeyri-rəsmi müəssisələrdə təhsil – könüllü və öz-özünə istiqamətlənən prosesdir. Onları maraq, müstəqil tədqiqata və həmkarları ilə təcrübələrini bölüşmək həvəsi idarə edir. Deməli, muzey cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını nəzərə almaqla ömür boyu təhsilə şərait yaradan mədəni-maarif ocağıdır, bu isə bilavasitə cəmiyyətdə maarifləndirmənin artırılmasına və yüksək keyfiyyətli təhsilə nail olmağa şərait yaradacaq.

Əvvəl-axır onlar təhsil nəzəriyyəsini daha az, tamaşaçının muzeydə davranış və hərəkətlərinin, oxumaya, eksponatlara baxışa sərf etdiyi vaxtın və hətta hansı zalda daha çox dayandıqlarının müşahidəsini isə daha çox qeydə ala biləcəklər.

Sosial-mədəni və mədəni-yaradıcı mühitin yaradılması, təhsilin vasitə və üsullarının seçilməsi, məktəblilərin tərbiyə və inkişafı məktəb və məktəbəqədər təhsil müəssisələrinin imkanlarının, coğrafiya, biologiya, tarix, diyarşünaslıq, ədəbiyyat, təbiətşünaslıq, texnologiya, həndəsə və s. fənlərin funksional xüsusiyyətləri nəzərə alınmaqla baş verir.

Bu fənlərin birləşməsi təhsilin humanist konsepsiyasının üç əsas məqsədinə xidmət edir:

1. elmlərin əsasının və dünyanın elmi təsvirinin bütövlüyünün formalaşması;
2. şagirdlərin gələcək həyat fəaliyyətinə hazırlanması;
3. şagirdlərə meyllərin, bacarıq və imkanların müəyyənləşməsində kömək göstərilməsi və dəstəklənməsi, habelə gələcəkdə onların maraq və tələbatlarının inkişaf etdirilməsi.

Mədəni-maarif proqramlarına aşağıdakılar daxildir:

- Tarixi-mədəni irsə və mədəni davranışa dəyərli yanaşmanın formalaşması, əsaslandırılması;
- Mədəni, elmi-tədqiqat və bədii yaradıcılıq xüsusiyyətlərinin inkişafı;
- Böyüməkdə olan nəslə tarixi, dünyagörüşünü, dünyanı dərk etməni, məişəti, ənənələri, bədii fəaliyyəti, mənəvi mədəniyyəti dövrün mədəni tamlığının ifadəsi olan muzey eksponatları və abidələr vasitəsi ilə öyrədilməsi;
- Təlim keçmiş şəxslərin təcrübədə sosial-mədəni hərəkətləri yerinə yetirməsi.

Yuxarıda qeyd edilənlər aşağıdakı formalarda yerinə yetirilir:

1. Muzey dərsləri və ustad dərslər;
2. Muzey müsabiqələri və proqramlar;
3. Muzey bayramları;
4. Məktəblilərin muzeydə sosial-mədəni funksiyasını müəyyənləşdirmək;
5. Sosial-mədəni muzey təcrübəsi.

Bu proqramlar uşaqlarda sosial fəallıq, Vətənin taleyi ilə bağlı yüksək məsuliyyət, mənəviyyat, insana humanist münasibət, əxlaq kimi keyfiyyətlərin formalaşdırılmasına kömək edir.

Muzey təhsili təhsilin, ilk növbədə, şəxsiyyətin yaradıcı imkanlarını fəallaşdırmağa yönəldilmiş növünə aiddir. Axı təhsildə istifadəsi səmərəli ola biləcək lazımi xəzinə, mədəni, tarixi dəyərlər məhz burada toplanıb.

Muzey təhsili kimi əsas məsələyə müraciət edərək qeyd etmək lazımdır ki, o nəsillərin əlaqəsi, tərbiyə, təhsil, milli şüurun formalaşdırılması, ənənəvi və bədii irsin ötürülməsi və onun mühafizəsinin təmin olunması nöqteyi-nəzərindən baxılmalıdır.

Məhz mütərəqqi qlobal proseslərlə etnik irsin xüsusiliyinə lokal qayğıkeş münasibətin birliyi xalqın mədəni ənənələrinin qorunub saxlanılmasını və inkişafını təmin edir.

## 2. Muzey təhsili xalçaçılıq ənənələrinin saxlanılması vasitəsi kimi

### Muzey təhsili prinsipləri və məsələləri

Muzey təhsili, tərbiyə, təhsil və təlimin məqsədi, məzmunu, qanunauyğunluqları və səmərəli yollarından bəhs edən elmdir. Bu tərifdə ifadə olunan anlayış, yəni tərbiyə, təhsil və təlim əsas pedaqoji anlayışlardır.

Muzey təhsilinin prinsipləri, təşkilati xüsusiyyətləri, nəzəri və təcrübi fəaliyyətinin qurulması sistemi kimi metodologiya böyük əhəmiyyət kəsb edir. Yalnız təhsil mühiti kimi muzeyin fənlərarası əlaqəsini öyrənməklə muzey təhsilini anlayış sırasına çıxmaq, onun məqsəd və vəzifələrinin elmi quruluşunu müəyyənləşdirmək mümkündür.

Muzey təhsili obyekti – muzey kommunikasiyasının mədəni-maarif aspektləri, yəni muzeydə azad, yaradıcı, təşəbbüskar şəxsiyyətin formalaşmasında iştirak məsələsini qarşıya qoyan, baş verən dialoqun fəal iştirakçısına çevrilməsinə şərait yaradan proseslərə xüsusi yanaşmadır.

Əsas muzey təhsili anlayışları muzeydə təşkilati işlərə yanaşmaları müəyyən edir:

1. Muzey əşyası – ilk növbədə, böyük elmi, memorial, tarixi və bədii əhəmiyyət daşıyan abidədir, onu muzey-pedaqoji fəaliyyətin xüsusi şəraitində "ələ götürmək", "baxmaq", "hərəkət etdirmək" olar. O müəyyən dövrün, mədəniyyətin, onu yaradan sənətkarın obraz-rəmzi xüsusiyyətlərini saxlamalıdır.

2. Muzey mədəniyyəti bir tərəfdən saxlanc, muzey əşyalarının yığımı, digər tərəfdən – mədəniyyət əşyalarının toplanması, saxlanması, istehsalı ilə bağlı proseslər kimi təqdim edilir.

3. Muzey kommunikasiyası – muzey mədəniyyətinin mövcudluğunu təmin edən müəyyən mövqelərin təşkilatlanmasıdır. Burada aşağıdakı mövqeləri xüsusilə qeyd etmək lazımdır:

- yaradıcı (rəssam, yazıçı, alim, siyasətçi) mövqeyi, muzey əşyasına çevrilə biləcək mədəniyyət elementləri yaradan şəxslər;
- muzey əşyalarını dərk edənlərin (tamaşaçıların, dinləyicilərin, ziyarətçilərin) mövqeyi;
- muzey təhsilinin mövqeyi tamaşaçılara ekspozisiyada olan əşyalarla bağlı bilgilər verməli, onlarla dialoqa girməli, müstəqil yaradıcı axtarışa maraq oyatmalı, bəzi hallarda isə tamaşaçı ilə muzey əşyası arasında əlaqələndirici rolunda olmalıdır. Bundan başqa, muzey pedaqoqu yaradıcı ilə verilmiş muzey əşyasına maraq göstərən tamaşaçı arasında kommunikasiyanın təşkilatçısıdır.

Verilmiş mövqelərin qarşılıqlı əlaqəsi muzey kommunikasiyasının şəraitinə istiqamət verir.

Bu qarşılıqlı əlaqə aşağıdakı prinsiplər üzərində qurulur:

1. Muzey mühitinə fəal münasibət prinsipi. Bu interpretator mövqeyinin formalaşmasının vacibliyini bildirir.
2. Tolerantlıq prinsipi. O həyat formasının, ənənələrin müxtəlifliyini, yaşamaq üçün bərabər hüquq imkanlarını görməyi nəzərdə tutur.
3. Müəlliflik prinsipi. Tamaşaçı mədəni mühitə daxil olarkən mədəni və tarixi qəhrəmanların xarakterinə uyğun dialoqa girir.

Muzey təhsili modelinin strukturuna aşağıdakılar daxildir:

- məqsəd,
- vəzifələr,
- istiqamətlər,
- xüsusi tələblər,
- iş forma və üsulları,
- prinsiplər,
- muzey pedaqoji texnologiyaları.

Alqoritmə müvafiq modeli qurmaq və onun nəticəviliyini sınaqdan çıxarmaq mümkündür.

Muzey təhsilinin məqsədi – muzeyin çoxsahəli fəaliyyətinə daxil edilməklə şəxsiyyətin inkişafı üçün şərtlərin yaradılmasıdır.

Muzey təhsilinin vəzifələri:

- Vətənə məhəbbət, milli mədəniyyətə və ənənələrə hörmət hissinin aşılanması;
- Özünüdərkin formalaşması, fəal həyat mövqeyinin yaranması, ətraf mühitə müvəffəqiyyətlə uyğunlaşma;
- Yaradıcı və təşkilati xüsusiyyətlərin inkişafı, imkanlarının maraqlarına uyğun həyata keçirilməsi, öz təkrarolunmaz fərdiliyinin büruzə verilməsi;
- Muzey təcrübəsinin materialları əsasında uşaq-böyük müştərək fəaliyyətinin qurulması;
- Tədris məşğələlərinin yeni tipinin mənimsənilməsi, muzey pedaqoqunun səlahiyyətli peşəkarlığının artırılması;
- Muzey təhsilində təlim nəticələrinin qiymətləndirilməsi mexanizmlərinin və meyarlar sisteminin formalaşdırılması.

Metodologiya - pedaqoji gerçəkliyi əks etdirən bilik qazanma üsulları və prinsipləri, proqram əsasnamələri, bilik qazanma üzrə sistemlər, pedaqoji nəzəriyyələrin strukturu və əsasları haqqında biliklər sistemidir.

Müşahidə - hər hansı bir təlimi planlı surətdə sezilməsidir. Bundan ötrü tədqiqatçı qabaqcadan plan tərtib edir, müşahidə obyektlərini müəyyənləşdirir və işin gedişinə müdaxilə etmədən, ona mane olmadan nəzərdə tutduğu pedaqoji hadisəni tədqiq edir.

Müsahibə - hər hansı bir məsələnin söhbət yolu ilə öyrənilməsinə deyilir. Bu zaman tamaşaçı ilə muzey pedaqoqu arasında canlı ünsiyyət yaranır və nəticədə təlimin gələcək perspektivləri müəyyənləşdirilir.

Eksperiment – hər hansı pedaqoji məsələni xüsusi təşkil edilmiş şəraitdə öyrənmək və muzey təhsili növünün səmərəliliyini müəyyənləşdirmək üçün mühüm əhəmiyyət kəsb edir.

Sənədlərin öyrənilməsinə – istənilən tədqiqat işində geniş istifadə olunan yazılı ədəbiyyatın və arxiv materiallarının, uşaqların yaradıcılıq fəaliyyəti məhsullarının və s. öyrənilməsi daxildir.

Muzey təhsili çərçivəsində işin ən səmərəli formaları kütləvi, qrup şəklində və fərdidir.

Kütləvi formalara teatrlaşdırılmış ekskursiyalar, yürüşlər, ekspedisiyalar, gecələr, olimpiadalar, viktorinalar, tarixi və mədəni hadisələrin iştirakçıları və şahidləri ilə görüşlər, etnoqrafik oyunlar, konfranslar, debatlar, mühazirələr, başqa muzeylərə və şəhərlərə turlar daxildir.

Qrup şəklində iş formalarına dərnək, cəmiyyət, bələdçilərin, jurnalların nəşri, videofilmlərin çəkilməsi, xəritə üzərində texniki və ya canlı səsin müşayiəti ilə muzey ekskursiya və fərdi-tədris turlar aiddir.

Fərdi iş sənədli arxiv materialları ilə iş, məruzələrin, referatların hazırlanması, xatirələrin qeydə alınması, tədqiq edilən xalqın həyat və məişətinin müşahidəsi, idraki tapşırıqların yerinə yetirilməsi, elmi işlərin yazılması, veteranlarla, sənətkarlarla yazışmalar, fərdi sərgilər, tamaşaçıya eksponatı “səsləndirmək” imkanı verən epistolyar, ədəbi materialın tapılması üçün fərdi-təhsil turlarının işlənib hazırlanmasıdır.

Lakin hər bir forma digəri ilə əlaqəlidir. Kütləvi iş dərnəyə, dərnəkdəki məşğələlər isə adətən gecələrə, konfranslara və s. çevrilir.

Təhsil prosesində uşağın fəallıq prinsipi didaktikada əsas məqamlardan biridir. Bu fəallıq öz-özünə təzahür etmir, texnologiyanın tətbiqi ilə idarə olunan məqsədyönlü pedaqoji təsirlər nəticəsində meydana gəlir.

Muzey pedaqoqu məktəblilərdə adi bir müşahidəçi deyil, tədqiqatçı, yaradıcı mövqeni formalaşdırmalı, keçmiş, indiki və gələcək irsə münasibətdə şəxsi məsuliyyət mövqeyini; tarixi və digər materialı təkcə mexaniki yadda saxlamır, həm də onun emosional-mənəvi qiymətləndirilməsi mövqeyini həyata keçirir.

Muzey təhsili oyun texnologiyaları, kollektiv yaradıcılıq işləri texnologiyası, problemli və fərdi təhsil texnologiyası xüsusilə səmərəlidir.

Fərdi təhsil texnologiyasının variantlarından biri də layihələr üsuludur. Bu təhsil prosesini fərdiləşdirməyə, uşağa planlaşdırmada, təşkilati məsələlərdə müstəqilliyini nümayiş etdirməyə və öz fəaliyyətinə nəzarət etməyə imkan verən kompleks təlim üsuludur.

Muzey dərsi ənənəvi dərs formasından fərqli olaraq uşaqlarla böyüklərin müştərək layihələri formasında təşkil edilir. Muzey dərsi tamaşaya bənzəyir, o həm darıxdırıcı və maraqlı, istedadlı və qeyri-

adi ola bilər.

Bütün bunlar mədəni-maarif işinə, muzeylə auditoriyanın əlaqələrinə yeni yanaşmanı həyata keçirməyi tələb edir. Bu da nəzəriyyənin rolunu dərk edərək yeni – muzey pedaqogikası termininin yaranmasına səbəb oldu.

Qeyd etmək lazımdır ki, muzey pedaqogikası baxımından təhsil geniş məna kəsb edir, bura insanın inkişafı, onun biliyinin, şəxsi keyfiyyətlərinin, daxili aləminin, dünyaya dəyərli münasibətinin formalaşması daxildir.



## Təhsil üçün əlverişli mühitin yaradılması

İstənilən muzeyin fəaliyyəti muzey əməkdaşı ilə onu dinləyən muzey auditoriyası arasında əlaqənin düzgün qurulmasından asılıdır. Muzey auditoriyasının öyrənilməsi, sabit, daimi auditoriyanın formalaşması isə muzeyin ətrafına tamaşaçıların cəlb edilməsi ilə nəticələnər.

Bu sahədə fəaliyyəti planlaşdırmazdan əvvəl analitik işi həyata keçirmək lazımdır, yəni muzey xidmətləri, onların keyfiyyəti və tələbatının icmalı hazırlanmalı, anket sorğusu yolu ilə muzeyi ziyarət edən tamaşaçıların təəssüratları əsasında razılıq əmsalının müəyyənləşdirilməsi, muzey fəaliyyətinin monitorinqi keçirilməlidir. Texnoloji səmərəliliyin təhlili isə kadrların peşəkarlığına, təhsil proqramlarının yeniləşmə səviyyəsinə, muzey məşğələlərinin yeni forma və mövzularının axtarışına qiymət verilməsi üçün şərait yaradar. Elmi-praktiki konfranslarda iştirak, müəllif proqramlarının mövcudluğu, xüsusi metodiki işləmələr, nəşrlər nəzərə alınmalıdır. Texniki, təşkilati və insan ehtiyatlarının təhlili nə qədər mürəkkəb olsa da, son ucda işin daha dəqiq təşkilinə xidmət edə bilər.

## Azərbaycan Xalçası Dövlət Muzeyinin təhsil siyasəti

Bütün bunlar Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin əsas missiyasının müəyyənləşdirici amilidir:

Xalça Muzeyi öz kolleksiyalarının tarixi potensialını müasir Azərbaycan mədəniyyətinin inkişafı üçün istifadə edir. Muzeyin fəaliyyəti milli irsin əsas hissəsini təşkil edən xalça sənətinin ən yaxşı nümunələrinin və xalçaçılıq texnologiyasının qorunmasına, öyrənilməsinə və





interpretasiyasına istiqamətlənib. Xalça, muzeydə ənənəvi həyat tərzinin geniş mədəni kontekstində sıx əlaqədə olan, digər elementlərlə uyğunlaşır. Muzey xalça kolleksiyalarının formalaşması ilə yanaşı, xalça və xalçaçılıqla bağlı qeyri-maddi irsin, həmçinin əfsanə, adət, ənənə və müasir təsəvvür semantikasının və xalça estetikasının qorunmasına xidmət edir. Xalçanın milli adətlərimizin və həyat tərzimizin ayrılmaz hissəsi kimi, muzeyin təhsil işinin Azərbaycan sakinlərinə və qonaqlarına ünvanlanmış kompleks anlayışıdır.

Bizim əsas vəzifəmiz isə təhsili inteqrasiya proseslərindən və məlumat imkanlarından istifadə etməklə, ənənəni cəmiyyətin özünəməxsus xüsusiyyətlərinin dinamik inkişafı prosesinin nəticəsi kimi nəzərdən keçirməklə yönləndirməkdir.

Muzey təhsili tamaşaçıların müxtəlif kateqoriyalarına, onların maraqlarına fərqli yanaşmanı tələb edir ki, bu da auditoriya ilə dialoqun fəal inkişafına şərait yaradır. Müxtəlif yaşlı və peşəli qruplara aid daimi tamaşaçılar üçün mühazirələrin, dərnəklərin, məşğələlərin və digər formada işin təşkili, əhalinin müdafiə olunmayan təbəqələri ilə işin təşkili – bütün bunlar muzey təhsilinin formalarıdır. Muzeydə burada dəzgahda toxunmuş xalça müsabiqələri, ən yaxşı xalça ornamenti təsviri müsabiqəsi, muzey eksponatları əsasında "nə, harda, nə vaxt və necə" tipli viktorinalar, müasir geyimdə xalça ornamentlərinin nümayiş olunduğu festivallar, intellektual və interaktiv oyunlar və s. təşkil edilir.

Azərbaycan Xalçası Dövlət Muzeyinin nəzdindəki muzey təhsilinin əsas prioriteti:

- məlumatlandırma – muzey topluları, ayrı-ayrı muzey eksponatları haqqında ilkin məlumat almağı nəzərdə tutur. Məlumat xidmətinə elektron interaktiv məlumat bazasının yaradılması, o cümlədən ekspozisiya ilə müstəqil dərindən tanışlıq məqsədilə xarici dillərdə məlumatlar daxildir.
- təhsilə – muzey-pedaqoji proqramların tətbiqi, muzeyin xüsusiyyətlərinə uyğun ali və orta təhsil müəssisələri ilə müştərək layihələrin hazırlanması daxildir. O əsl mədəniyyət abidələri ilə tanışlıq və onların öyrənilməsinə əsaslanır, ekskursiya, muzey dərsləri, dərnəklərdə, o cümlədən yaradıcılıq emalatxanalarında məşğələlər









şəklində həyata keçirilir. Proqramda milli tarix və mədəniyyətin öyrənilməsi sahəsində məktəb proqramlarını əyaniləşdirən və zənginləşdirən tematik ekskursiyaların təşkili nəzərdə tutulur. Muzey tərəfindən hazırlanmış tədris vəsaitlərini dərs zamanı istifadə etmək istəyən müəllimlər üçün xüsusi kurslar açılır.

- yaradıcı başlanğıcların inkişafı – ənənəvi xalçaçılığın sirlərinin öyrənilməsi və təcrübəsinin yeni nəsillərə çatdırılması məqsədilə ustad dərslərinin keçirilməsini nəzərdə tutur.
- Ünsiyyət – dəyirmi masa ətrafında görüşlər formasında təşkil olunur, burada əsasən işləri muzeyin fondlarında saxlanılan peşəkarlar, həvəskarlar, muzeyin fondlarının yaradılmasında, elmi tədqiqatlar, axtarışlar və ekspedisiyalar əsasında komplektləşdirilməsində iştirak edən insanlar iştirak edirlər. Ünsiyyət muzeyin tərkibində olan "Muzeyin dostları klubu", "Maraqlar klubu" vasitəsilə həyata keçirilə bilər. Bu ünsiyyət forması Muzeylə bağlı ümumi maraqları olan insanlar arasında baş verir və təhsil prosesində cəmiyyətin fəallığını dəstəkləməklə yanaşı, dialoqun genişlənməsinə səbəb olur.
- İstirahət – muzey auditoriyasının istəklərinə müvafiq, asudə vaxtın təşkili, muzeydə istirahətin tələblərə uyğun həyata keçirilməsidir. Bu "Açıq Qapı" günləri, Muzey gecələri, Muzey bayramları və s. şəklində ola bilər. Burada tamaşaçılara bir eksponat haqqında məlumat hekayə, nağıl şəklində təqdim edilə bilər, sehrli uçan xalça vasitəsilə ekskursiya təşkil oluna bilər və s.

Muzeyin təhsil proqramı interaktiv xüsusiyyət kəsb edir. Onlar eksponat və adətlərdən məlumat verən tamaşa şəklində keçirilir. Tamaşaçılar bu proqramlarda passiv dinləyici deyil, aktiv iştirakçıdır. Məhz öz fəal iştirakı ilə ziyarətçilər Azərbaycan xalşası ilə bağlı mədəni irsi öyrənirlər.

Azərbaycan Xalçası Dövlət Muzeyində muzey təhsilinin əsas məqsədi aşağıdakılardır:

- Müxtəlif yaş qrupları üçün muzey təhsili vasitəsilə ənənəvi xalçaçılığın dirçəldilməsi;
- Gənclərin milli xalça sənəti haqqında məlumatlandırılması və onların xalçaçılığa meylinin dəstəklənməsi;
- Uşaqlarda yaradıcılığa marağın inkişaf etdirilməsi;
- Milli xalçaçılıq tarixinin tədrisi;
- Xalçaçılıq zonalarında xalçaçıların peşəkar bacarıqlarının artırılması.

Bundan başqa, Muzeydə "Xalça Muzeyinin dostları Klubu" fəaliyyət göstərir, Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsində isə Respublika Muzeylərarası Şəbəkə mövcuddur ki, onlar da muzey əməkdaşları ilə muzey dəyərlərini əhəmiyyətli hesab edən insanlar arasında sıx əməkdaşlığa xidmət edirlər.

Təcrübə mübadiləsinin, əməkdaşlığın təşkili və inkişafı məqsədilə Muzey həm ölkə daxilində, həm də xaricdə bir sıra seminar-təlimlər təşkil edir, burada Bakının və bölgələrin muzey əməkdaşları böyük məmnuniyyətlə təcrübə mübadiləsi aparırlar. Belə tədbirlərdən biri







15-16 oktyabr 2009-cu il tarixində "Muzeyə dəstək şəbəkələrinin yaradılması və əhəmiyyəti" mövzusunda keçirilmişdir. Tədbir zamanı muzey işçiləri Avropa təcrübəsini öyrənmiş, bu barədə Almaniyanın Oldenburq şəhərində yerləşən Çarlz fon Ossietski adına Universitetin Ömürboyu Təhsil Mərkəzinin layihə rəhbəri muzeyşünas Tomas Şniberq məlumat vermişdir. Seminar-təlim yaşlıların təhsili ilə yanaşı, ictimaiyyəti muzeyə cəlb etməklə muzeylərin sosial rolunun artırılmasına və muzey işçilərinin peşəkarlığının təkmilləşdirilməsinə xidmət edirdi.

Muzey marketinqinə həsr edilmiş tədbir isə amerikalı marketoloq və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis Çarlz Kroçenin iştirakı ilə keçirilmişdir. Burada muzey işçiləri müasir beynəlxalq təcrübəni öyrənmək imkanı qazanmışlar.

Tekstil və geyimlərin konservasiyası üzrə təlim ekspert və mütəxəssis Patrisiya Everin iştirakı ilə təşkil olunmuşdur. Təlim muzey əməkdaşlarına və bərpaçılara tekstilin konservasiyası üzrə müasir üsullarla tanış olmaq imkanı verdi.

## 3. Muzey təhsilin auditoriyası

Muzey auditoriyası şərti olaraq sosial-demoqrafik və sosial-psixoloji keyfiyyətlərinə görə aşağıdakı qruplara bölünür:

- 4-7 yaş;
- 8-13 yaş;
- 14-18 yaş;
- yaşlılar.

Tematikanın və muzey tədbirlərinin keçirilmə üsullarının işlənməsi zamanı muzey tamaşaçılarına differensial yanaşmağı, bu və ya digər auditoriya tipinin xüsusiyyətlərini nəzərə almağı tələb edir.

Muzeyin əməkdaşları hər bir tamaşaçı kateqoriyası üçün müəyyən təkliflər hazırlamalıdır: rollara bölünmüş oyun və interaktiv ekskursiyalar, mühazirələr və multimediya məşğələləri, teatr tamaşaları və ustad dərsləri, marşrutlu ekskursiyalar və s. təhsil proqramları.

Muzey tədbirlərində tamaşaçı fəallığının təhlili zamanı bir sıra amillər aşkar edilmişdir. Məsələn, ənənəvi interaktiv tamaşalar, etnoqrafik, mədəni turizm daha çox maraq doğurur.

Ailə auditoriyaları arasında bazar günü məşğələləri daha populyardır. Yaşlıların təhsili üzrə proqramlar hazırlanarkən yuxarıda qeyd







etdiyimiz kimi auditoriyanın yaş xüsusiyyətləri, üsulların müxtəlifliyi, materialın təqdimat yolları nəzərə alınmalıdır.

Beləliklə, tələb və təklif əsasında qurulan tədbirlər, hazırlanan təhsil proqramları daha uğurlu və nəticəvi olur. Ona görə də muzey auditoriyası muzey işinin qurulmasında və təhsil proqramının tərtibində mühüm əhəmiyyət daşıyır.

## Məktəbəqədər uşaqlar və kiçik sinif şagirdləri

Son onilliklər pedaqoji prosesin sürətli inkişafı, təhsilin özünə münasibətə yenidən baxılması illəridir. Uşağın özünü tam göstərməsi, cəmiyyətlə, tarixlə, bəşər mədəniyyəti ilə münasibət qurması üçün şərait yaradılmalıdır.

Pedaqoji kollektiv konkret təhsil formalarını və istiqamətlərini araşdırarkən digər təşkilatlardan fərqlənən mövqe nümayiş etdirməlidir.

Körpəyə, balaca uşağa bəşər mədəniyyətinin əsaslarını necə öyrətməli? Onda emosional mədəniyyəti, insani hisləri necə tərbiyə etməli? Mədəniyyətə yad texnologiyanı tətbiq etməkdənsə, mədəniyyət müəssisələrinə, xüsusən muzeylərə üz tutulmalıdır. Burada müxtəlif formalı məşğələlər, ekskursiyalar, muzeydə, uşaq bağçasında və ya məktəbdə muzey işçilərinin uşaqlarla məşğələlərini təşkil edərək milli mədəniyyətlə tanış edilməlidir.

Bu məqsədlə Uşaq Muzeyi yaratmaq, Uşaq Teatrı vasitəsilə körpələrə milli adət-ənənələri, xalq tətbiqi sənət nümunələrini nağıllar, əfsanələr, hekayələr, oyunlar, rəngləmələrlə əxz etdirilməlidir.

Uşaq Muzeyi mədəniyyət və təhsil müəssisələrinin müştərək təşkilati-hüquqi modeli kimi təhsillə mədəniyyətin vəhdəti, eyni zamanda elmi-metodiki eksperiment meydançasıdır. Uşaq muzeyləri əsasən "böyüklərin" ənənəvi muzeylərinin tərkibində, lakin xüsusi bölmə kimi yaradılaraq fəaliyyət göstərməlidir.

Uşaq Muzeyi – uşaqların milli mədəniyyət ənənələrini teatrlaşdırma yolu ilə anlatmağa üstünlük verməlidir. Bu zaman muzey pedaqoqu uşaqlar üçün müəyyən tarixi dövrü təsvir edən şəraiti yaratmalı, onu etnoqrafik nümunələrlə zənginləşdirməli, dramaturji vəziyyət isə gənc tamaşaçıları iştirakçıya çevirməlidir.

## Orta və yuxarı sinif şagirdləri

Sosioloji tədqiqatlar və statistika göstərir ki, muzey auditoriyasında orta və yuxarı sinif şagirdləri 30-60% təşkil edir. Muzeyin əsas tədbirləri və təhsil proqramları məhz bu kateqoriyadan olan tamaşaçılar üçün nəzərdə tutulur. Sosioloji tədqiqatlar göstərir ki, məktəblə muzey arasında əlaqələr nə qədər möhkəm olsa, məktəblilər də bir o qədər asudə vaxtlarını muzeydə keçirməyə həvəs göstərirlər. Əlbəttə, yeniyetmələrin mədəni təmayüllərində ailənin rolu böyükdür. Əgər orta siniflərdə oxuyan şagirdlərin hər üçüncüsü muzeyə ailə ilə gəldiyini söyləyirsə, yuxarı siniflərdə bu rəqəm hər on nəfərdən biri olur. Orta və yuxarı sinif şagirdlərinin muzeylə əlaqələrinin xarakteri, ziyarətin səbəbi onların yaş xüsusiyyətləri, psixologiya və şüurunun bəzi məqamları ilə müəyyən edilir. Muzey öz fəaliyyətində məhz bu məqamlara istiqamətlənməlidir.

Muzeylə məktəbin qarşılıqlı əlaqələri həll olunan məsələlərin ümumiliyi və onların hər bir sosial institutda eyni zamanda həll edilmə xüsusiyyətləri ilə müəyyən edilir. Muzeylə məktəb münasibətləri zaman keçdikcə ideoloji mühitə uyğun dəyişilirdi. Lakin muzey və məktəb hər zaman bir-birinə təsir göstərirdi.

Məsələni həll etmək üçün muzey dəfələrlə təşəbbüslə çıxış edir. Müəllimlər üçün muzeyin təklif etdiyi mövzulara uyğun mövzular üzrə qısamüddətli məşğələlər, o cümlədən ekskursiyaların keçirilməsi ilə bağlı məsləhətlər təşkil edir.

Tədricən tamaşaçıların bütün kateqoriyaları, o cümlədən məktəblilərlə işlə bağlı davamlı təsəvvür formalaşır, bu da muzey işçisinin bilavasitə işidir.

Məktəblə əməkdaşlığın digər istiqaməti muzey materialları əsasında məktəblilərlə işdir. Bunun həyata keçirilməsi üçün ciddi təşkilati tədbirlərin həyata keçirilməsi vacibdir. Təşkilati tədbirlərlə yanaşı, eyni zamanda, məktəblilərlə yeni əlaqə formaları araşdırılmalıdır. Beləliklə, qeyd edilənlər məktəblilərin muzeyə gəlməsinə hazırlığı və muzey materiallarının möhkəmləndirilməsinin aktuallığını artırır. Dünya





muzey təcrübələrinin öyrənilməsi göstərir ki, müxtəlif yaş qrupundan olan insanların, xüsusilə də şagird və tələbələrin muzeylərə cəlb edilməsində muzey pedaqoqlarının rolu böyükdür.

Muzeylə məktəbin qarşılıqlı əlaqəsi vahid vəzifə - insanın tam və azad inkişafını təmin etmək üçün mədəniyyətdə şəxsiyyətin iştirakının həyata keçirilməsi istiqamətində onların funksional fərqlərinin dərki əsasında bərabərhüquqlu əməkdaşlığı kimi nəzərdən keçirilir.

Təhsilin muzey və məktəb sahələrinin fərqi qarşılıqlı zənginləşmə prinsipinə uyğun aşağıdakı kimi nəzərdən keçirilir:

- əgər məktəb biliyin bütün sahələrini əhatə edir və təsdiq olunmuş proqram əsasında həyata keçirilirsə, muzey seçmə təhsil imkanı verir;
- məktəbdə üstünlük təşkil edən informativ yanaşma ilə müqayisədə muzeydə təhsil insanın hissi-emosional təcrübəsinin genişlənməsi, dəyərlərə münasibətdə həyəcan xüsusiyyətlərinin inkişafı, estetik reaksiya, "əşyaların dilinin" vizual hissi və dərki, ilkin mənbədən biliklərin əldə olunması vasitəsilə həyata keçirilir.

**Uşaq təhsilinin səmərəliliyinin artırılması**

Muzey təhsilinin səmərəliliyini artırmaq məqsədilə hər bir yaş qrupuna fərdi yanaşmaq lazımdır. Bu zaman Muzey məktəbəqədər və aşağı sinif şagirdləri üçün oyunlar, interaktiv qarşılıqlı əlaqəyə əsaslanan xüsusi proqramlar hazırlamalıdır. Ekspozisiyada məktəbəqədər və aşağı sinif şagirdlərinin davranışı və qəbuletmə imkanlarını nəzərə alan xüsusi bölmənin yaradılması vacibdir.

Muzeydə tamaşaçı fəallığını artırmaq, xalçaçılığa marağı genişləndirmək məqsədilə tamaşaçılara naxışın yaradılmasında, xalçanın toxunmasında bilavasitə iştirak etmək imkanı verilməlidir. Ekspozisiyada əsl eksponatlarla yanaşı, multimediya proqramlarına, interaktiv instalyasiyalara, canlı nümayişlərə geniş yer ayrılmalıdır.

Muzeydə orta və yuxarı sinif şagirdləri üçün xalçaçıların iş prosesinin canlı nümayişinin keçirilməsi; ailələr üçün təhsil proqramlarında müxtəlif yaşlı uşaqlarla muzeyə gələn ailələrin asudə vaxtının səmərəli təşkili daxil edilməlidir.

İlk eksperiment kimi Muzeyin ekspozisiyasında qurulacaq alaçıqda "köçəri alaçığı" oyunu hazırlanmışdır. Alaçıq çətən və keçələrlə qurulmuş, içərisində məfrəşlər, ləməqabağı, döşəkcələr, xalçalar, mütəkkələr, sandıqçalar və s. yerləşdirilmiş, məişət əşyaları ilə bəzədilmişdir. İnteryer o dövrü əks etdirən fotoşəkillərlə, aksessuarlarla bəzədilmiş və eksponatların tez-tez dəyişilməsi üçün imkanlar yaradılmışdır. Nağıl əhval-ruhiyyəsi yaradan alaçıqda uşaqlar hər bir əşyanın qeyri-adi nağılı ilə tanış olur, müasir informasiya texnologiyalarından istifadə etməklə cizgi filmlərinə baxırlar. Əşyalar, maddi aləmə səyahət qeyri-adilik, maraq və həyəcan doğurmaqla yanaşı, uşaqda vətənpərvərlik hissi, milli dəyərlərimizlə ünsiyyət həvəsi yaradır. Burada əşya uşaqların toxuna bildikləri başlıca "dərs vəsaiti"nə çevrilməklə onların muzey mədəniyyətinə nüfuz etmələrinə şərait yaradır.

Uşaqlar tək muzey əşyalarına deyil, eyni zamanda maddi aləmə, təbiətə, öz evinə, kitablara, oyuncaqlara qayğı ilə yanaşmağı öyrənir. İnsan əllərinin hərarətindən yaranmış incilərə qayğıkeş münasibət - onların muzeydə öyrəndikləri ilk vərdişlərdir.

Məktəbəqədər uşaqlar və kiçik sinif şagirdləri üçün muzey təhsili proqramları tərtib edərkən ilk növbədə aşağıdakı məsələlərə diqqət yetilməlidir:

- Proqram və onun məzmununun ümumi strukturunun müəyyənləşdirilməsi;
- Proqramın metodiki materiallarla təmin edilməsi;
- Proqramın uşaqlarla işdə sınaqdan keçirilməsi;
- Elmi-metodiki və məlumat işində iştirak (elmi-praktik konfransların, seminarların keçirilməsi, çap materialları, yerli mətbuatda, televiziya və radioda çıxışlar).

Proqramın başlıca məqsədi uşağın şəxsiyyət kimi formalaşmasına, onun yaradıcı xüsusiyyətlərinin nəsillərin mənəvi, tarixi təcrübəsi ilə tanışlıq vasitəsilə inkişaf etdirilməsinə kömək etməkdir.

Məktəbəqədər uşaqlar və aşağı sinif şagirdləri üçün proqramların əsasını oyun təşkil edir. Məşğələlər özü də oyuna çevrilməli, uşaqlar müəyyən tematik, tarixi vəziyyəti və ya bütöv tarixi dövrü yaşamalıdırlar. Bu oyunlarda keçmişlə bu gün, köhnə və müasir əşya bir-biri ilə "danışmalı", uşaq və muzey pedaqoqu bir-birini sual-cavab etməlidirlər. Dialoq nəsə hazırlayarkən, xalça toxuyarkən və ya bədii tikmə ilə məşğul olarkən baş tuta bilər. Əsas məsələ onların sənətkarlar tərəfindən yaradılmış əsl sənət əsərləri ilə "işləmələridir".

Proqramda nağıl qəhrəmanlarının gəlinciklərinə xüsusi yer verilir. Gəlinciklər müxtəlif materiallardan hazırlana bilər: milli geyimli gəlinciklər, gips, parça və kağızdan. "Milli mədəniyyətin obrazları" olan gəlincikləri uşaqlar əllərinə keçirir, nağılları səhnələşdirir. Uşaqlar kağızdan gəlinciklər düzəldir, həmin gəlinciklərlə bağlı nağılları öyrənir və onları səhnələşdirirlər. Ələ keçirilmiş hər gəlinciyin dəqiq etnoqrafik kostyumu və yeri var. Eyni zamanda proqramda "Kilimarası" xalq kukla tamaşalarının nümayişi nəzərdə tutulur.

Xalq təqvimi ilə bağlı məşğələlər də maraq doğurur. Bu məşğələlərin əsasında yerli materialların əsli, xalq bayramları və milli ənənələr durur. Uşaqlar yazda və payızda qoyunların necə qırxıldığını, boyaq bitkilərinin toplanmasını, ipin hazırlanması və xalçanın necə toxunduğunu öyrənirlər. Onlara həmçinin xalça ilə bağlı bayramlar: xalçanın hanadan kəsilməsi barədə məlumatlar verilir.

Psixoloji tədqiqatlar göstərir ki, muzey təhsili proqramı ilə məşğul olan uşaqlarda yaşıdlarına nısbətən obrazlı düşüncə, əlaqəli nitq daha çox inkişaf edib, onlar daha fəal və emosionaldırlar, teatrlaşdırılmış





oyunlara daha çox maraq göstərirlər, qeyri-adi mühitdə özlərini sakit və sərbəst hiss edirlər. Uşaqların düşüncə tərzi də müəyyən tərzdə modifikasiya edir. Bu proqramlarla məşğələlər yaradıcı təfəkkürün müxtəlif tərəflərinə – orijinallıq və mürəkkəbliyin inkişafına kömək edir, uşaqlar obrazlarla daha asan işləyirlər.

Müşahidələr nəticəsində müəyyən olundu ki, daha kiçik yaşlı uşaqlar – dörd yaşlılar üçün də proqram yaratmaq lazımdır. Bu proqramı "Əşyavi aləmə giriş" adlandırmaq olar. Yoxlamadan keçmiş proqram balacalara muzey məkanında tanış olacaqları eksponatları, onu əhatə edən ətraf mühiti aydın dərk etməyə, muzey mədəniyyətini formalaşdırmağa kömək edir.

Bu proqramın özəl xüsusiyyəti - milli mədəniyyət nümunələrindən ibarət kiçik kolleksiya əsasında əşyavi-inkişaf mühitini yaratmağı mümkün edir.

Qeyd etmək lazımdır ki, bu iş uşaqları zənginləşdirir, inkişaf etdirir, tərbiyəçiləri məşğul edir, valideynlərin xoşuna gəlir, gündəlik həyata sevinc gətirməklə, qarşılıqlı razılıq hissi doğurur.

Muzey təhsili proqramlarının həyata keçirilməsi nə verir?

Proqramın iştirakçısına çevrilən uşaq onun tətbiqi sayəsində ziyalı şəxs olmaq şansı qazanır, o uşaqlıqdan mədəniyyətlə, xüsusən onun ən gözəl təzahürü olan muzeylə ünsiyyət qurur.

Muzey mühitini sevən və öyrənən uşaqlar yaşa dolduqca muzey sərgilərinin və mədəni hadisələrin həssas və məmnun tamaşaçılarına çevrilirlər.

Proqramın sosial səmərəsi bütün valideynlərdə də böyük maraq doğurur.

Məktəbəqədər muzey pedaqogikası sahəsində təcrübədə əsas məqsəd aşağıdakılardan ibarətdir:

- Ən yaxşı muzey təcrübələrinin öyrənilməsi və ümumiləşdirilməsi;
- Muzey işinin mədəni-təhsil fəaliyyətində yeni meyllərin aşkarlanması;
- Muzey təhsili işinin yerinə yetirilməsində elmi-metodoloji







kömәyin göstәrilmәsi;

- Problemlәr üzrә elmi-tәdqiqat işlәrinin aparılması;
- Muzey pedaqoqlarının qabaqcıl pedaqoji tәcrübәlәrinin ümumilәşdirilәrәk yayılması.

**Yaşlıların tәhsili**

- Ümumilikdә, tәhsilin bir neçә növü var:
- Rәsmi tәhsil – tәhsil müәssisәlәrindә ixtisas almaq mәqsәdilә hәyata keçirilir;
- Fakultativ tәhsil – ixtisas әldә edilmәdәn yerinә yetirilir;
- Qeyri-rәsmi vә ya ömür boyu tәhsil – ailә, sosial vә vәtәndaş hәyatı vasitәsilә hәyata keçirilir.

Ömür boyu tәhsil:

- Bizim insanlarla vә onu әhatә edәn mühitlә gündәlik



әlaqәlәrimiz zamanı baş verir.

- Bizim bilik, bacarıq, dәyәr, hiss vә tәhlil etmәk imkanlarımızın artırılmasına gәtirib çıxarır.
- Ətraf alәmә münasibәtimizin formalaşmasına kömәk edir.

Yaşlıların ömür boyu tәhsili – yaşlıların könüllü surәtdә ömür boyu müxtәlif biliklәrә yiyәlәnmәsidir. Yaşlıların ömür boyu tәhsilini iki yolla müәyyәnlәşdirmәk olar:

- Birinci istiqamәt ömür boyu tәhsilin yaşlılara vә tәlәbәlәrә istiqamәtlәnmәsidir, bu da onun әhәmiyyәtini nümayiş etdirir.
- İkinci istiqamәt tәhsili nәzәrdә tutur. Formal tәhsil müәllimlәrlә tәlәbәlәr arasında mübadilәni nәzәrdә tutur. Ömür boyu tәhsil tәlim subyektlәrinin fәallığına әsaslanır. O rәsmi tәhsilә cavab olaraq baş verir, gündәlik hәyat da daxil olmaqla, mәdәni mübadilә zamanı digәr insanlarla ünsiyyәtdә baş verә bilәr. Ömür boyu tәhsil tәkcә mәktәbdә, litseydә, universitetlәrdә deyil, hәr yerdә baş verir.






Yaşlılar – həvəskarlar və peşəkarlar

Muzeydə ömür boyu təhsil qeyri-rəsmi, qeyri-müntəzəm və hətta təsadüfi ola bilər. Lakin muzey pedaqoqları, muzey işçiləri yaşlıların xüsusiyyətlərini nəzərə almaqla təhsil proqramlarının tərtibinə rəsmi yanaşmalıdırlar.

Bu təhsil aşağıdakılara kömək edə bilər:

- Insanın cəmiyyətə inteqrasiyasının təmin edilməsinə;
- Onun fəal vətəndaş mövqeyinin yüksəldilməsinə;
- Onun şəxsiyyətinin inkişaf etdirilməsinə;
- Əmək bazarında rəqabətə davamlılığının və işədüzəltmə imkanlarının gücləndirilməsinə.

Muzeylərdə yaşlıların təhsili:

- Tamaşaçının məcbur edilmədən, azad seçim vasitəsilə muzey ekspozisiyasına fəal cəlb olunması prosesini bildirir.

Yaşlıların psixoloji xüsusiyyyətləri:

- Yaşlılar öyrənmək istədiklərini özləri seçmək qabiliyyətindədirlər.
- Təhsil mövcud biliklərə və yaşlıların təcrübəsinə əsaslandıqda daha səmərəli olur. Lakin təhsil təkcə onların artıq bildikləri ilə məhdudlaşdırılmamalıdır.
- Yaşlılar məqsədyönlüdürlər. Onlar yaxşı təşkil olunmuş və məqsədləri aydın olan təhsil proqramını dəyərləndirirlər.
- Yaşlılar onların işlərində və ya həyatlarında ən faydalı olan şeylərə diqqət yetirirlər. Ona görə də təhsil onların maraq, iş və s. ilə bağlıdır.
- Hər təlim zamanı onlara şəxsi fikirlərini söyləmək üçün imkan yaratmaq lazımdır.

Yaşlıların təhsilində yanaşmalar:

Öyrədici və ya didaktik

- Didaktik yanaşmanın üstünlükləri tamaşaçıya diqqəti onu maraqlandıran sənət əsəri haqqında məlumat üzərində cəmləməyə imkan verir.
- Bu yanaşmanın narahatçılığı isə tamaşaçıların yalnız "ekspertlər" tərəfindən seçilmiş eksponatları öyrənmələridir.

Fəal təhsil və ya "kəşf"

- Təhsil şagirdlərin fəal iştirak etdikləri, təhsillə əyləncə arasında sərhədlərin qeyri-müəyyən və ya olmadığı bir proses kimi nəzərdən keçirilir.

Konstruktiv

- Muzey müxtəlif tamaşaçılar üçün çoxsaylı fərqli təhsil üsullarının olduğu foruma çevrilə bilər. Təhsilin mərkəzi sərgi və ya onun məzmunu deyil, şagirdin özüdür. Burada təhsil tələbə tərəfindən izah edilən müəyyən səviyyə çərçivəsində fəal proses kimi nəzərdən keçirilir.

Muzeylərdə məktəblilərlə işin metodologiyası yaxşı qurulmuşdur və muzey müəllimlərlə əlaqə, rəsmi təhsil proqramlarının dəstəklənməsi və müxtəlif təhsil üsulları sahəsində zəngin təcrübəyə malikdir. Məsələn, yaşlı və uşaqların aşağıdakılardan xoşları gəlir:

- Onlara hörmətlə yanaşanda;
- Onlar təhsil prosesində bilikləri, mülahizələri ilə bölüşməyi xoşlayırlar.
- Onların hər ikisinə təhsil zamanı seçim imkanı xoşdur.
- Onlarla bərabərhüquqlu kimi davranmadıqda narazı qalırlar.

Uşaqlarla böyüklər arasında bir böyük fərq mövcuddur: uşaq və yeniyetmələrə təhsil məcburi olduğu üçün onlar məktəbə gedirlər.





Yaşlılar isə onları işlə əlaqədar maraqlandıran hər hansı biliyi əldə etmək və ya ehtiyaclarını ödəmək məqsədilə öyrənməyə başlayırlar.

Təhsil hər hansı məqsədə yönəlir. O təkcə faktları və mövcud məlumatı yadda saxlamaq üçün deyil, eyni zamanda yeni ideya və təcrübəni kəşf etmək, bəzi təqribi nəticələr əldə etmək və qiymətləndirməklə bağlıdır.

Uşaqlarla yaşlıların təhsili arasında əsas fərqlər də bundan ibarətdir. Bütün bunlar muzey təhsili ilə sıx əlaqədardır.

Təhsildə maneələr

Əsas səbəblər bunlardır: maliyyə, vaxt qıtlığı, xəstəliklər, əlillik, nəqliyyat, ərazilərdə muzeylərin olmaması.

Aparılan tədqiqatlar göstərir ki, mədəni maneələr də ola bilər. Məsələn, uşaqlıqdan oxumağa həvəsin olmaması, yaşlıların təhsilini dəstəkləməyən irqi və gender xürafatı və s. kimi maneələr mövcuddur.

Bu maneələr ən təhlükəlidirlər, çünki onlar bilavasitə dərindən hörmət bəslənilən hiss və inamlarla bağlıdırlar.

Təhsilə münasibət və səbəblər

Yaşlılar üçün təhsil proqramlarını planlaşdırarkən yaşlılara maraqlı olan aşağıdakı amilləri nəzərə almaq lazımdır:

- ailə: uşaqlara məktəbdə keçdiklərini daha yaxşı anlamalarına kömək etmək. Ailə üçün təhsil proqramlarında iştirak valideynləri öz xeyirləri naminə oxumağa cəlb edir.
- sosial: yeni dostlar tapmaq.
- təhsildə tərəqqi: ixtisası artırmaq və ya daha mürəkkəb kursa keçmək.
- icmaların fəallaşmağına kömək etmək.
- başqa insanların təcrübəsindən yararlanmaq.
- icmanın həyatında və ya könüllü qrup və təşkilarlarda iştirak: təcrübi bacarıqların inkişafının nümayişi və identik mədəniyyətlərin bayram edilməsi.
- iş: daha yaxşı iş əldə etmək və ya öz ixtisasını artırmaq.
- fərdi inkişaf üçün səbəb – öz bilik və bacarıqlarını yaxşılaşdırmaq, hobbi tapmaq.
- Həyat kataklizmləri və ya böhranları: miqrasiya, köçmə və s.
- Dövlət, rəhbərlik, vergilər, sahibkarlar və s. tərəfindən verilmiş yerinə yetirilməsi məcburi olan tələblər.

Muzeylər qeyri-rəsmi təhsilin inkişafı üçün ideal məkandır. Tamaşaçılar muzeydən gedərkən muzeyə daxil olduqları andan qat-qat artıq bilik, məğzə varmaq və ya ilhama gəlmək kimi bir çox bacarıqlar əldə edərək özləri ilə aparırlar və bütün bunlar onlara həyatlarında müsbət dəyişikliklər etməyə imkan yaradır.

## 4. Azərbaycan Xalçası Dövlət Muzeyinin xalçaçılıq ənənələri üzrə muzey təhsili proqramları

L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində müxtəlif yaş qrupları üçün proqramlar mövcuddur.

**Məktəbəqədər yaşlı uşaqlar və kiçik sinif şagirdləri üçün proqramlar və interaktiv oyunlar**

**"Naxışlar aləminə səyahət"**

burada ekspozisiya zallarına uşaq auditoriyasına uyğyn hazırlanmış xüsusi ekskursiya ilə müşayiət edilən baxış keçirilir. Daha sonra həmin uşaqlara üzərində milli geyim növləri, toxuculuq alətləri, heyvanlar, xalça elementləri, mis qablar və s. təsvirlər əks edilmiş rəngləmə vərəqələri paylanılır. Uşaqların ekspozisiya kolleksiyaları arasında gördükləri xalqımızın əlləri ilə yaradılan qədim əşyaların formasını, üzərindəki elementləri, rəng çalarlarını vərəq üzərinə köçürtmək uşaqlarda böyük maraq doğurur. Sevindirici haldır ki, belə bir proqram kiçik yaşlı uşaqları həm əyləndirir, həm də onların rəng duyumlarına, yaddaşlarına müsbət təsir göstərir, onlarda rəssamlıq qabiliyyəti və fantaziyanın inkişafına, bəzən isə gizli istedadlarını aşkar olunmasına

kömək edir.

**“Öz xalçanı yarat”**

bu kompüter oyunu zamanı uşaqlar hazır naxışlardan istifadə etməklə xalça kompozisiyasını yaradırlar. Onlar kompozisiya yaratmağın əsasları ilə tanış olurlar.

**“Əsrləri geyimlərdə yaşadaq”**

məktəbəqədər yaşlı uşaqlar ölkənin müxtəlif bölgələrinə xas uşaq milli geyimlərini rəngləyirlər.

**“Xalça pazlları”**

4-8 və 10-14 yaşlı uşaqları əhatə edir. Balacalar üçün biz qarmaqları olan daha yüngül konstruksiyadan istifadə edirik, digərlər üçün isə maqnit pazllar tətbiq edilir ki, burada uşaqlar hazır eskiz variantları əsasında xalça yığırlar. Pazlları yığarkən uşaqlar ornamentləri daha yaxından öyrənir və fərqləndirirlər, Azərbaycan xalça məktəbləri, xalçaçılıq ənənələri haqqında ilkin məlumatı əldə edirlər. Pazllar 30-dan 50-80 hissəyə qədər olurlar.

**Orta və yuxarı sinif şagirdləri üçün**

**“Nənələr və nəvələr”**

interaktiv oyunu kompleks xarakter daşıyır. Oyun zamanı uşaqlar toxucuya ipin hazırlanmasında, əyrilməsində və s. kömək edir, sonda isə üzərində Muzeyin loqotipi olan lövhəcikləri hədiyyə alırlar.

**“Sehrli oyuqlar”**

dəstələrin iştirakı ilə həyata keçirilər təhsil oyunudur. Oyun iki mərhələdən ibarətdir. Birinci mərhələdə uşaqlar ekranda görünən xalçanın adını və ya növünü tapır, sonra isə həmin sözü hərflərin üzərində durmaqla bildirirlər. Əgər cavab düzdürsə, onda digər ekran işıqlanır və uşaqlar ikinci mərhələyə keçirlər. Burada onlar bələdçinin suallarına cavab verirlər. Suallar çətinlik səviyyəsinə görə fərqlənirlər onların sayı 6-dır. Çətinlik səviyyəsinə görə suallara cavab verdikcə uşaqlar oyuqları açır və priz əldə edirlər. Beləliklə, onlar müxtəlif tarixi məktəblərə aid xalçaları fərqləndirə və Azərbaycan xalçasının bu və ya digər kompozisiyasının tarixi haqqında məlumat əldə edə bilirlər.

**“Xalça toxumağı öyrənirik”**

Bu proqram uşaqların bütün yaş qrupları üçün nəzərdə tutulub, burada tamaşaçılar bu və ya digər xovlu və xovsuz xalça texnologiyasını seçə və gələcəkdə onu toxuya bilirlər.

**“Nənəmin cəhrəsi, babamın dəhrəsi – bizi qoru”**

Bu proqram uşaqlar üçün nəzərdə tutulmuşdur, onlar ağac və saxsı üzərində çəkir və onların mənasını yadda saxlayırlar. Oyunda iştirak edən uşaqlar qədim inanclara görə insanları mənfi qüvvələrdən mühafizə edən müxtəlif qoruyucu naxışları taxta qaşıqlar, saxsı məmulatları üzərində çəkir, parça üzərində tikir, xalça toxuyur. Bununla onlar qədim inancları öyrənir, özünü sehrli enerjinin köməyi ilə qoruya biləcəyi rəmzi seçirlər.

**“Sehrli çarx”**

“Sehirli çarx” proqramı müxtəlif yaş qruplarında olan məktəblilər üçün nəzərdə tutulmuşdur. Proqramda iştirak etmək üçün ayrı – ayrı məktəblərin şagirdləri cəlb olunacaqdır. Hər məktəbdən 5 nəfər şagirddən ibarət komanda təşkil olunmalıdır. Komandalara Xalça Muzeyinin Elmi ekskursiyalar şöbəsinin 2 elmi işçi rəhbərlik edəcək. Elmi işçilər rəhbərlik etdikləri komanda üzvlərinə muzeyin ekspozisiya zallarında ekskursiya aparacaq, xalçalar haqqında ətraflı məlumat verəcəklər. Müsabiqə üçün çarxa xalça adları münsiflər

heyəti tərəfindən müəyyən olunub yazılacaqdır. Çarxa qoyulmuş xalça adları komandaya və onun rəhbərlərinə məlum olmalıdır.

Komanda üzvləri çarxı fırladaraq hərəkətə gətirilməlidirlər. Çarx üzərində olan ox hansı xalçaya istiqamətlənərsə, o xalçanın əsas elementlərini şagirdlər öz sual vərəqlərində təsvir etməlidirlər.

Sonda xalça elementlərini düzgün tapan komanda qalib hesab olunacaq və mükafatlandırılacaqdır.

**Gənclər üçün təhsil proqramları**

**"Xalça dünyasının tarixi"**

Bu proqram məlumat xarakteri daşıyır. Birinci sensorlu ekranda Azərbaycanın tarixi xalça məktəblərinə aid müxtəlif növ xalçalar işıqlanır. Tamaşaçı bir toxunuşla onu maraqlandıran xalçanı seçir və ekranda xalça, onun mənsub olduğu məktəb haqqında məlumat görünür. İkinci sensorlu ekranda xalça naxışları ilə tanış olmaq, onlar haqqında məlumat əldə etmək olar.

**"Gözəllik ondur, doqquzu dondur"**

Bu proqramda bütün yaş qrupları iştirak edə bilər. Onlar milli geyimin özəllikləri haqqında məlumat alır, onları geyinə və hətta şəkil çəkdirə bilərlər.

**Ailə üçün proqramlar**

**"Axtaran, tapar"**

Bu proqram ailə üçün nəzərdə tutulub. Muzeyi ziyarət edən ailə bu oyunun köməyi ilə xalçanın naxışlarını öyrənir, uşaqlar ekspozisiyaya baxa-baxa həmin naxışları xalçalarda tapır və nəticədə bu xalça haqqında tam məlumatı əldə etdikdən sonra onu yadda saxlayırlar.

**"Azərbaycan ənənələrində xalçanın rolu" və ya "Toy"**

Proqram böyük həyacanla, sevinclə, şən məqamlarla, xalq musiqisi ( "vağzalı", "tərəkəmə" və s.) sədaları altında keçirilir. Toy iştirakçılarına əsas və epizodik rollar paylanılır ( bəy və gəlin, sağdış və solduş, toya dəvət edilmiş qonaqlar). Iştirakçılara milli üslubda geyimlər geyindirilir, rəqs edənlərin əllərində toy xonçaları, kəllə-qənd, şax, gəlinlə bəyin yanlarında isə güzgü, şamlar və çıraq kimi Azərbaycan toy atributları xüsusi gözəlliklə seçilirlər.

Ən qədim toy rituallarıda bu proqramda yer tutur:

"**xnayaxma**" – həna vasitəsilə bəy və gəlinin, həmçinin bütün qız və gəlinlərin əllərinə müxtəlif növ milli naxışlar vurulur, əsasən də xalça elementlərindən olan- "buta", "simurq quşu", " ləçək-türunc" və s.;

"**bəyin oğurlanması**" – toy zamanı bəyi zarafatyanı oğurlayırlar və geriyə qaytarmaq üçün xələt tələb edirlər;

"**gəlinin belinə qırmızı bağlamaq**"- gənc qızın bəd nəzərdən qorunması, ailə həyatının sevinc və xoşbəxtlik içində keçməsi, gözəl ana olması diləkləri ilə adətən qardaş tərəfindən gəlinin belinə qırmızı bağlanılır;

Toy zamanı qədim dövrlərdən yaranmış xalq oyunları qonaqları daha da şənləndirir, məsələn:

"**haxışta**" – müxtəlif bayatılar, şeirlər, mahnılar və təriflər səslənir;

"**kəndirdartma**" – bu idmansayağı oyunda iki komanda ayrılır və hər biri kəndiri öz tərəfinə dartır və güclərini sınayırlar;

"**pəhləvanların güləşi**" - qədim toy adətlərindən biri olaraq, insanları birliyə, azadlıq mübarizəsinə çağırır;

"**üzük-üzük**"- bu oyun əsasən qızlar arasında keçirilir. Onlar iki komandaya ayrılır, onlara kəsalar paylanılır və kəsalardan birinin altına üzür gizlənilir. Üzüyü tapa bilməyən komanda mahnı, şeir və yaxud rəqs ifa etməlidir.

Bütün bu adətlərin "Oğlan seçib – qız görməyə gəlmişik" proqramı vasitəsilə nümayış etməkdə əsas məqsəd ondan ibarətdir ki, böyüklər adətlərimizi unutmasınlar, uşaqlar nə qədər çox yeni-yeni adətlər yaransada bu adətləri canlı görüb sevərək və yaşadaraq, milli

irsimizin kökünün kəsilməsinə imkan verməsinlər.Ölkəmizə gələn əcnəbilər isə Azərbaycan xalqına məxsus olan dünyanın ən gözəl toy şənliyini tanısınlar, təbliğ etsinlər və bizim xalqın nə qədər zəngin folklor nümunələri yaratdığına bələd olsunlar.

**Yaşlılar üçün təhsil proqramları**

**"Ayın xalçası"**

hər ay Muzeydə təşkil edilən tədbirdir, ayın xalçasına həsr edilir, tamaşaçı il ərzində on iki xalça, onların tarixi və hazırlanma texnologiyaları, xalça ilə bağlı dastanlar, nağıllar, əfsanələr haqqında məlumat əldə edirlər. Bütün muzey sərgiləri kimi "Ayın xalçası" da annotasiyalar, bukletlərlə müşayiət olunur ki, bu da tamaşaçılar üçün maraqlı məlumat mənbəyidir.

**"Dəyişən zamanda dəyişməyən dəyərlər"**

bu proqram yaşlılar üçün nəzərdə tutulub və xovsuz xalçaların unudulmaqda olan texnologiyalarının bərpasına həsr edilib. Proqram təhsil prosesində muzeylərin fəallığının artmasına, cəmiyyətin aktivliyinin dəstəklənməsinə və cəmiyyət səviyyəsində dialoqun genişlənməsinə xidmət edir. Proqramın əsas məqsədi yaşlıların təhsili ilə yanaşı, muzey əməkdaşlarının peşəkarlığının artırılması, cəmiyyətin müxtəlif təbəqələri arasında xalçanın təbliğidir. Proqram çərçivəsində Muzeydə xalça texnologiyaları üzrə ustad dərsləri keçirilir, tamaşaçılar arasında peşəkar toxucu və həvəskarlara da rast gəlinir. Sonuncular bu texnologiyalara dərnəklərdə yiyələnə bilirlər.

**"Xalça texnologiyası"**

video-dərsi zamanı biz xalça texnologiyaları, xalçanın hazırlanması ilə bağlı milli adət və ayinlər, qeyri-maddi mədəni dəyərlər haqqında film nümayiş etdiririk. Dərs adətlərə ehtiram göstərmək, mədəni dəyərlərə hörmətlə yanaşmağa və s. imkan verir.

## Muzey işçiləri üçün Metodiki Göstərişlərdən istifadə olunması ilə baglı tətbiq olunan treninqlər

Azərbaycan Xalçası Dövlət Muzeyində muzey işçiləri və məktəb müəllimləri üçün treninq təşkil olunur. Hər qrupda 10-15 nəfər olmaqla hər qrup muzey təhsilinin aşağıdakı mövzularından biri üzrə təlim keçirilir:

- Məktəbəqədər uşaqlar və ibtidai sinif şagirdləri üçün;
- yuxarı sinif şagirdləri üçün;
- Yaşlılar üçün.

Treninqlər zamanı muzey təhsili problemlərini öyrənmək məqsədilə müzakirələr keçirilir.

**İstifadə olunan ədəbiyyat**

Azərbaycan dilində :

- Tağıyeva R. Azərbaycan xalçası. Monoqrafiya. Bakı. Elm – 1999.
- Kuzmenko P.A., Əsgərova M. Ə. “Xalçaçı rəssam” PROQRAMI. AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI. 2003

Rus dilində :

- Воронович В.М. Управление учебно-воспитательным процессом средствами музейной педагогики/ В.М. Воронович. – Кіраванне ў адукацыі. – № 12. – 2007. – С.
- Керимов Л. Азербайджанский ковер. т.1. Ленинград – 1961.
- Музейная педагогика и организация музейного дела. Томский Государственный Педагогический Университет. Томск – 2008.
- Юхневич М.Ю. Я поведу тебя в музей. Москва-2001.

İngilis dilində:

- Cameron D. A Viewpoint: The Museum as a Communications System and Implications for Museum Education. // Curator, Vol. 11, #1, 1968. P. 33 — 40.
- Cameron D.F., Abbey D.S. Museum Audience Research. // Museum News, Vol.40, #2, October 1961. P. 34 — 38.
- Lifelong Learning in Museums. A European Handbook. SATE srl – Ferrara (Italy) - 2007

Veb-istinadlar:
http://www.azcarpetmuseum.az
http://festival.1september.ru/schools/1001472/

# Əlavələr

**Uşaq təhsil proqramı "Xalça toxumağı öyrənirik"**
**orta və yuxarı sinif şagirdləri üçün**

Azərbaycan Xalçası Dövlət Muzeyində, eləcə də orta məktəblərdə 9 ay ərzində həftədə 1 dəfə fakültativ dərnək kimi təhsil proqramı təşkil edilir. 1 dərsin fəaliyyəti 45 dəqiqə, cəmi 36 dərs.

**Proqramın məqsədi**: Azərbaycan xalçaları haqqında əsas biliyə yiyələnmək və mənimsəmək.

**Proqramın mövzusu:**

**Nəzəri hissə**

1. Azərbaycan xalçası nədir?
• Azərbaycan xalça sənətinin tarixi
• Xalça məişətdə və adətlərdə

2. Xalçaların növləri
• Xovsuz xalçalar
• Xovlu xalçalar
• Xalça məmulatları
• Azərbaycan xalça məktəbləri

3. Naxış və kompozisiyalar
• Xalça naxışlarının tarixi inkişafı
• Naxışların növləri: həndəsi, nəbati, zoomorf
• Süjetli xalçalar
• Xalça məktəblərinin əsas kompozisiyaları

**Təcrübi hissə**

4. Xalça necə toxunur?
• Yunun hazırlanma mərhələsi
• İpin əyrilməsi
• İpin boyadılması
• Xanaların növləri, ərişin və arğacın uzadılması
• Toxuculuq alətləri ilə tanışlıq

5. Toxuculuğun başlanğıcı
• Xana arxasında iş
• Sadə xovsuz xalçaların texnikası (palaz, kilim)
• Xovlu xalçaların toxunması

## Təhsil proqramı "Dəyişən zamanda dəyişməyən dəyərlər" peşəkar toxucular üçün

Azərbaycan xalçası Dövlət Muzeyində 7 ay ərzində həftədə 3 dəfə fakültativ dərnək kimi təhsil proqramı təşkil edilir. 1 dərsin davamiyyəti 2 saat- cəmi 84 dərs.

**Proqramın məqsədi**: Azərbaycanda xovsuz xalçaların hazırlanma praktikasının stimullaşdırılması

**Proqramın mövzusu**:

**Nəzəri hissə**

1. Xovsuz xalça nədir?

• Xovsuz xalçanın tarixi
• Xovsuz xalça məişətdə və adətlərdə

2. Xovsuz xalçaların növləri

• Xovsuz xalçalar
• Xalça məmulatları
• Keçə məmulatları
• Həsirin hörülməsi

3. Xovsuz xalçaların əsas naxış və kompozisiyaları

**Təcrübi hissə**

1. Dəzgahların növləri, xalça alətlərinin istifadəsi
2. Naxış eskizinin necə hazırlanıb istifadə edilməsi
3. Palazın texnikası
4. Şəddənin texnikası
5. Cecimin texnikası
6. Kilimin texnikası
7. Ladının texnikası
8. Vərninin texnikası
9. Sumaxın texnikası
10. Xalça məmulatları

**Təhsil proqramı "Sehrli xalça aləmi"**
**həvəskarlar üçün**

Azərbaycan xalçası Dövlət Muzeyində 7 ay ərzində həftədə 2 dəfə fakültativ dərnək kimi təhsil proqramı təşkil edilir. 1 dərsin fəaliyyəti 1,5 saat, cəmi 56 dərs.

**Proqramın məqsədi:** Azərbaycan xalçaları haqqında əsas biliyə yiyələnmək və mənimsəmək.

**Proqramın mövzusu:**

**Nəzəri hissə**

1.Azərbaycan xalçası nədir?
- Azərbaycan xalça sənətinin tarixi
- Xalça məişətdə və adətlərdə

2.Xalçaların növləri
- Xovsuz xalçalar
- Xovlu xalçalar
- Xalça məmulatları
- Azərbaycan xalça məktəbləri

3.Naxış və kompozisiyalar
- Xalça naxışlarının tarixi inkişafı
- Naxışların növləri: həndəsi, nəbati, zoomorf
- Süjetli xalçalar
- Xalça məktəblərinin əsas kompozisiyaları

**Təcrübi hissə**

1.Xalça necə toxunur?
- Yunun hazırlanma mərhələsi
- İpin əyrilməsi
- İpin boyadılması
- Xanaların növləri, ərişin və arğacın uzadılması
- Toxuculuq alətləri ilə tanışlıq

2.Toxuculuğun başlanğıcı
- Xana arxasında iş
- Sadə xovsuz xalçaların texnikası (palaz, kilim)
- Xovlu xalçaların toxunması

## “Axtaran, tapar ”
## Azərbaycan xalçalarının əsas naxışları əsasında ailə proqramı



## “Xalça toxumağı öyrənirik”
## proqramı üçün çeşnilər





















# Corab

Corablar ən çox istifadə olunan geyimlərdəndir.
Corablar ipək və yun saplardan toxunurdu.
Corabları qadınlar , kişilər və uşaqlar geuinirdilər.
Corablar xüsusi naxışlarla bəzədilirdi.
Corablar dizə qədər uzun və topuğa qədər qısa şəkildə toxunurdu.



# Arxalıq

**Arxalıq üst qadın geyimidir. Arxalıq astarlı olurdu.**
**Arxalıq müxtəlif şəkilli, müxtəlif qollu olurdu.**
**Arxalığı məxmərdən və fərqli parçalardan tikirdilər.**
**Onu zərli saplarla, naxışlarla bəzəyirdilər.**



# Xalça məmulatları

İncə xalçalardan müxtəlif əşyalar tikilirdi:
məktəb üçün-heybə,yola çıxmaq üçün -xurcun,
duz saxlamaq üçün -duz torbası,əşya-yataq dəstləri
üçün -məfrəş.



Heybə



Duz torbası



Məfrəş

# Bafta

Qadın üst geyimlərini daha da gözəlləşdirmək üçün evlərdə əl işi olaraq qadınlar və ya karxanalarda sənətkarlar müxtəlif növ baftalar hazırlayırdılar. Onları geyimlərin qollarına, ətəyinə, boyun hissəsinə bəzək olaraq tikirdilər.







# Tuman

Azərbaycanlı qadınlar uzun tumanlar geuirdilər.
Hətta bəzən beş-altı tuman üst-üstə geyinilirdi.
Tumanlar beldən büzməli olur və beldən bağla bağlanırdı..
Bu bağların ucunda qızılı və ya gümüşü saplardan hazırlanmış qotazlar olurdu.
Tumanlar müxtəlif parçalardan hazırlanırdı.
Ən sadə parçalardan tutmuş ən bahalısına qədər. Adətən tumanların ətəyi başqa parçadan köbəylə, müxtəlif cür bəzəklərlə bəzədilirdi.





# Üst köynəyi

Üst köynəyi kişilər, qadınlar və uşaqlar da geyirdilər. Üst köynəyin qolu əsasən uzun, enli və düz olurdu. Qoltuq altına başqa parça tikilirdi. Onun boyun hissəsi bir düyməylə düymələnirdi. Üst köynəyin boynuna, yaxasına, qolunun ağzına və ətəyinə bafta (naxışlı lent) tikilirdi.



**Qadın üst köynəyi**



**Uşaq üst köynəyi**

# Çarıq

Çarıq - kişi ayaqqabısıdır. Onu adətən kənd yerlərində geyinirdilər. Çarığı işlənməmiş (xam) dəridən hazırlayırdılar. Çarığın üst hissəsi yun iplərlə sarılırdı.



# Çarşab

Keçmişdə bəzi şəhərlərdə və kəndlərdə qadınlar çarşaba bürünürdülər. Evdən çıxarkən istifadə olunan çarşab, bir rəngli atlasdan, dama-dama parçadan və müxtəlif növ ipək parçalardan tikilirdi.



# Arxalıq

**Kişi üst geyimidir. Bel hissəsində kəsikləri olur.**
**Ətəyi qırçın və ya büzməli olur. Arxalıq müxtəlif parçalardan tikilirdi.**
**Arxalığın üstündən cavanlar kəmər, yaşlılar isə qurşaq bağlayırdılar.**



# Eşmək

**Sırıqlı üst geyimidir. Sinəsi və qolunun altı açıq olur. Əsasən məxmər parçadan tikilir. Eşməyin içinə, yaxasına, qolunun ağzına və ətəyinə xəz qoyulur.**



## Buta

Xalçalarda tez-tez "Buta" təsvirini görə bilərsiniz."Buta" atəşi təsvir edir. Qədim insanlar atəşə sitayiş edirdilər.



Sadə buta



Analı-balalı buta



Küsülü buta

# Ağaclar

Xalçalarda tez-tez müxtəlif ağac təsvirlərinə rast gəlinir.
Bu təsvirlərlə xalçalar daha da gözəl görünür.



Dibçəkdə ağac



Şam ağacı

# Şalvar

**Üst qismi bol, ayaq tərəfi getdikcə daralır.**
**Balaqların arasındaüçbucaq formalı parça tikilirdi.**
**Keci sapından keçirilmiş , ucunda qotazı olan tumanbağı olurdu.**
**Şalvar evdə toxunmuş şaldan və ya müxtəlif yun parçalardan tikilirdi.**



# Naxış

## Qədim xalçaların naxışlarının bəziləri müxtəlif heyvan təsvirlərinə və əşyalara bənzəyir.



Əjdaha



Tısbağa



Buynuz

# Çəpkən

**Köynəyin üstündən geyilən qadın geyimi.**
**Çəpkən astarlı olurdu. Yan tərəfdə ətəyə yaxın hisssədə kəsikləri olur.**
**Çəpkənin çiuindən aşağı sallanan qondarma qolları var.**
**Çəpkən məxmər və müxtəlif zərli parçalardan olurdu, qırçınlarla bəzədilirdi.**



# Süjetli xalçalar

Bəzən xalçalarda müxtəlif səhnəciklər təsvir olunur.
Bu tip xalçalara süjetli xalçalar deyilir.



Rüstəm ağ divi
öldürür



Qadını müalicə edən
həkim

# Ovçuluq

Əvvəllər insanlar tez-tez ova gedərdilər.
Ovçular özləriylə ova itləri,şahinləri də aparırdılar.
Bir çox xalçalarda bunlar təsvir olunmuşdur.



İt



Şahin



Ovçu

# Araxçın

**Araxçın kişi papağıdır. Onu ipəkdən tikirdilər.**
**Araxçın müxtəlif naxışlarla bəzədilirdi.**
**Çox vaxt bu naxışlar xüsusi qızılı saplarla tikilirdi.**



# Çul

Qədim insanların gündəlik həyatında heyvanların böyük rolu vardı.İnsanlar bayramlarda onları xüsusi çullarla bəzəyir,qışda isə soyuqdan qorumaq üçün heyvanlara çul örtürdülər.





Bəzəmək üçün və soyuqdan qorunmaq üçün çul

# Bəzək əşyaları

Qədim zamanlarda da qadınlar üzük,sırqa,qolbaq taxmağı çox sevirdilər.Bu bəzək əşyaları qızıldan, gümüşdən və misdən olurdu.



Boyunbağı



Üzük



Qolbaq

# Xalçalar

İnsanlar keçmişdən evi isti saxlamaq üçün
xalçanı yerə sərirlər, divarlara asırlar.
Xalçalardan paltar,çanta, xurcun,pərdə tikirdilər.



Xalça



Qadın geyimi



Xurcun

# Hanalar

Xalçalar xüsusi qurğularda toxunurlar.
Bunlar dik hana və yer hanası adlanırlar.
Dik hanada müxtəlif xalçalar,yer hanasında isə
xovsuz xalçalar toxunur.



Dik hana



Yer hanası

# Ev heyvanları

Xalçalar maraqlı görünsün deyə insanlar xalçaları müxtəlif ev heyvanlarının təsvirləri ilə bəzəyirlər.



Uzunqulaq



Qoyun



Dəvə

# Mis qablar

Qədimdə insanlar mis qablardan istifadə edirdilər. Bu qablarda su içirdilər,yemək yeyirdilər,mis manqallarda odun yandırıb evləri isidirdilər.Bu qablar çox ağır olurdu. Bəzən bu qabları naxış və təsvirlərlə bəzəyirdilər.



Dolça



Manqal



Kasa

# Güllər

Xalçaları cürbəcür güllərlə bəzəyirlər.
Onlar rəngarəng olurlar.







United Nations
Educational, Scientific and
Cultural Organization

With the support of the UNESCO Office in Moscow
for Armenia, Azerbaijan, Belarus,
the Republic of Moldova and the Russian Federation

The National Commission
of the Republic of Azerbaijan for UNESCO

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Xalçası və
Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi

# AZƏRBAYCAN XALÇAÇILIQ

ƏNƏNƏLƏRİ VƏ BƏDİİ SƏNƏT
SAHƏLƏRİNİN SAXLANILMASI VƏ TƏBLİĞİ
MƏQSƏDİLƏ MUZEY TƏHSİLİ PROQRAMLARININ
İNKİŞAFI ÜZRƏ METODİKİ GÖSTƏRİŞ